QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

# SƏS



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 216 (5936) **22 noyabr** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# "Bu gün Sumqayıt müasir, sürətlə inkişaf edən, gündən-günə abadlaşan gözəl şəhərdir"

*Prezident İlham Əliyev noyabrın 21-də Sumqayıt şəhərində səfərdə olub*




Səh 2

8

"Yeni Azərbaycan Partiyası Azərbaycanın ən güclü və əzəmətli siyasi təşkilatı kimi özünü təsdiq edib"



9

Əli Həsənov: "Qanunsuz miqrasiya cinayətinə əli bulaşan insanlar layiqli cəzalarını alacaqlar"



14

Əli Kərimlinin Müsavata təsirləri



# “Bu gün Sumqayıt müasir, sürətlə inkişaf edən, gündən-günə abadlaşan gözəl şəhərdir”

*Prezident İlham Əliyev noyabrın 21-də Sumqayıt şəhərində səfərdə olub*




## *Rəsmi xronika*

Prezident İlham Əliyev Zakir Fərəcovun 1-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, Sumqayıt şəhərinin 70 illik yubileyi ilə əlaqədar və şəhərin sosial-iqtisadi inkişafında xidmətlərinə görə Zakir Fərəc oğlu Fərəcov 1-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilsin.

***

Prezident İlham Əliyev Sumqayıt şəhərində çoxmənzilli binaların dam örtüklərinin dəyişdirilməsi işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Mehdi Hüseynzadə adına Sumqayıt şəhər stadionunun yenidən qurulması ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Sumqayıt şəhərində yeni “ASAN xidmət” mərkəzinin layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Sumqayıt şəhərinin 70 illik yubileyi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Mahir Aslanovun 2-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin əməkdaşlarına ali xüsusi rütbələrin verilməsi haqqında Sərəncam imzalayıb.

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Sumqayıt şəhərində səfərdə olub. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı ümummilli lider Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoyub. Şəhər icra hakimiyyətinin başçısı Zakir Fərəcov Sumqayıtda görülən işlər haqqında məlumat verib. Prezident İlham Əliyev müvafiq tapşırıqlarını verib.***



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Sumqayıtda “Nizami” kinoteatrının yeni binasının açılışında iştirak edib. Dövlətimizin başçısı kinoteatrın binasının rəmzi açılışını bildirən lenti kəsib.

Noyabrın 21-də Sumqayıtda Muğam Mərkəzi istifadəyə verilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Mərkəzin açılışında iştirak edib. Dövlətimizin başçısı Muğam Mərkəzinin rəmzi açılışını bildirən lenti kəsdib, burada yaradılan şəraitlə tanış oldu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmçinin noyabrın 21-də Sumqayıt Dənizkənarı Bulvar Kompleksinin yeni salınmış hissəsində yaradılan şəraitlə də tanış olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Sumqayıt Dövlət Dram Teatrında şəhərin 70 illiyinə həsr olunmuş tədbirdə iştirak edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı tədbirdə geniş nitq söyləyib. Prezident İlham Əliyev öz nitqində qeyd edib ki, bu gün Sumqayıt müasir, böyük sənaye potensialına malik olan, sürətlə inkişaf edən, gündən-günə abadlaşan gözəl şəhərdir. Dövlət başçısı əldə edilmiş bütün nailiyyətlər münasibətilə sumqayıtlıları təbrik edib:

“Sumqayıtın qədim tarixi var. Ancaq şəhər kimi Sumqayıt 70 il bundan əvvəl formalaşdı. 1949-cu il noyabrın 22-də Nazirlər Sovetinin qərarı ilə Sumqayıt şəhəri yaradılmış və Sumqayıtın sürətli inkişafı başlamışdır. Sumqayıt sənaye şəhəri kimi formalaşdı, kimyaçılar şəhəri kimi inkişaf etdi. Sumqayıtda bir çox sənaye müəssisələri, yeni iş yerləri yaradılmışdır. Azərbaycanın müxtəlif bölgələrindən Sumqayıta kadrlar gəlməyə başlamışdır. Eyni zamanda, Sovet İttifaqının digər respublikalarından gələnlər Sumqayıtda işlə təmin olunmuşdular.

Ancaq əfsuslar olsun ki, şəhərin yaranmasının birinci mərhələsini əhatə edən dövr ərzində Sumqayıtda ekoloji tarazlığa fikir verilməmişdir, ekoloji tarazlıq pozulmuşdur. Sumqayıt o illərdə Sovet İttifaqında ekoloji cəhətdən ən qeyri-təmiz şəhər kimi fəaliyyət göstərirdi. Əlbəttə ki, bu, insanların sağlamlığına zərər vururdu, ekoloji tarazlıq pozulmuşdur. Ancaq 1969-cu ildə ulu öndər Heydər Əliyev Azərbaycana rəhbər seçiləndən sonra ekoloji vəziyyətə diqqət yetirməyə başlamışdır. Mən bilirəm ki, Heydər Əliyev Sumqayıtın ekoloji vəziyyətinin yaxşılaşdırılması üçün mərkəzi orqanlara dəfələrlə müraciət etmişdir, müvafiq tədbirlər görülmüşdür, təmizləyici qurğular quraşdırılmışdır və 1970-ci illərdə şəhərin ekoloji vəziyyəti yaxşılaşdırılmışdır, ancaq standartlara hələ də tam cavab vermirdi. Ancaq bu gün biz görürük ki, Sumqayıt ekoloji cəhətdən təmiz bir şəhərdir, havası təmizdir, təbiəti çox gözəldir. Əminəm ki, bu istiqamətdə bundan sonra da atılacaq addımlar Sumqayıtı daha da gözəlləşdirəcək.

Heydər Əliyevin fəaliyyəti dövründə Sumqayıt müasir sənaye şəhəri kimi inkişaf etdi, burada yeni yaşayış binaları tikildi, sosial obyektlər yaradıldı, parklar, xiyabanlar salındı, ağaclar əkildi və Sumqayıt Sovet İttifaqı müstəvisində mühüm ümumittifaq əhəmiyyətli sənaye şəhəri kimi inkişaf etmişdir.

***Ardı Səh. 3***

# “Bu gün Sumqayıt müasir, sürətlə inkişaf edən, gündən-günə abadlaşan gözəl şəhərdir”

## *Prezident İlham Əliyev noyabrın 21-də Sumqayıt şəhərində səfərdə olub*

**Əvvəli səh. 2**



1982-ci ildə ulu öndər Heydər Əliyev Moskvaya gedəndən sonra Azərbaycanın hər bir yerində olduğu kimi, Sumqayıtda da tənəzzül dövrü başlamışdır. O vaxtkı respublika rəhbərliyi öz məsuliyyətini tam dərk etmirdi, proseslərə nəzarət etmirdi və bunun nəticəsində Azərbaycanda inkişaf demək olar ki, getmirdi, durğunluq dövrü başlamışdı. Heydər Əliyev Siyasi Büronun üzvü və Sovet İttifaqının Nazirlər Soveti sədrinin birinci müavini kimi Azərbaycana daim kömək və diqqət göstərirdi, buna baxmayaraq, respublikada işlər tənəzzülə uğrayırdı. Xüsusilə 1985-ci ildən sonra Sovet İttifaqında dırnaqarası yenidənqurma dövrü başlamışdı. Həm Sovet İttifaqında çox mənfi proseslər getməyə başlamışdı, o cümlədən Azərbaycanda. Təsadüfi deyil ki, dırnaqarası yenidənqurma siyasəti başlanandan 6 il sonra Sovet İttifaqı kimi nəhəng dövlət çökdü.







1985-ci ildə Azərbaycan böyük çətinliklərlə üzləşmişdi. Çünki həm iqtisadi sahədə durğunluq hökm sürürdü, eyni zamanda, erməni millətçiləri baş qaldırmışdı, həm Dağlıq Qarabağda, həm də respublikamızın digər yerlərində, o cümlədən Sumqayıtda. Ulu öndər Heydər Əliyevin dövründə Dağlıq Qarabağda azərbaycanlı əhalinin faiz nisbəti kəskin artmışdır, 2 dəfə artmışdır və azərbaycanlı əhali 30 faizə çatmışdır. Əgər Heydər Əliyev 1982-ci ildən sonra Moskvaya getməsəydi və Azərbaycanda qalsaydı, bəlkə də 10 il ərzində artıq orada azərbaycanlı əhali 50 faizə çatacaqdı. Dağlıq Qarabağda erməni millətçiləri Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana vermək haqqında məsələ qaldırırdılar. Əfsuslar olsun ki, Azərbaycan Respublikasının rəhbərliyi bu məsələyə çox biganə yanaşırdı, öz məsuliyyətini dərk etmirdi və beləliklə, vəziyyəti nəzarətdən buraxmışdı. Eyni zamanda, erməni millətçiləri Sumqayıtda da yuva qura bilmişdilər və burada da xoşagəlməz proseslərə artıq təkan verilmişdi. Bildirməliyəm ki, Sovet İttifaqının süquta uğramasının bir neçə səbəbi var. Onların ən başlıcası odur ki, iqtisadi münasibətlər düzgün qurulmamışdı, planlı iqtisadiyyat özünü doğrultmamışdı. Sovet İttifaqının inkişafı 1980-ci illərdə daha çox neft amilinə söykənirdi və neftin qiyməti dünya bazarlarında kəskin düşəndən sonra gəlirlər də azaldı və bu gəlirləri başqa sahələrdən əldə edilən mənfəət hesabına formalaşdırmaq mümkün olmadı. Ona görə əlbəttə ki, iqtisadi amil birinci rol oynayırdı, eyni zamanda, 1985-ci ildən sonra Sovet İttifaqında milli siyasət sahəsində çox kobud səhvlər buraxılmışdır. Sovet İttifaqını böyük, çoxmillətli ölkə kimi ayaqda saxlayan, o cümlədən milli siyasət idi. Müttəfiq respublikalarda yerli milli kadrların qabağa çəkilməsi adi təcrübə idi. 1985-ci ildən sonra bu sahəyə böyük zərbə vuruldu. Biz yaxşı xatırlayırıq ki, o vaxt xüsusilə müsəlman respublikalarına münasibət çox mənfi idi. Müsəlman respublikalarının rəhbərlərinə qarşı qarayaxma kampaniyaları aparılırdı. Ümumittifaq mətbuatında bu respublikalar haqqında ancaq mənfi materiallar dərc edilirdi. Bu respublikalara mərkəzdən istintaq qrupları göndərilmişdi və elə bir rəy yaradılmışdı ki, Orta Asiya respublikalarında və Azərbaycanda vəziyyət bərbaddır, vəziyyət kritik həddə çatıb və o respublikaları idarə edənlər vəzifə borcunu yerinə yetirə bilmirlər. Əlbəttə ki, hər bir respublikada pozuntular da, nöqsanlar da olmuşdur, ancaq digər respublikalarda da bunlar var idi. Nə üçün bu istintaq qrupları Ermənistana, Gürcüstana, Ukraynaya, Moldovaya və digər respublikalara göndərilmirdi? Ancaq Orta Asiya respublikalarına və Azərbaycana göndərilirdi. Beləliklə, Sovet İttifaqının təməl sütunu olan milli siyasət artıq deformasiyaya uğramışdır.

Eyni zamanda, separatçılara imkan yaradıldı ki, onlar nəinki öz cəfəng fikirlərini səsləndirsinlər, həm də ictimai rəyə təsir etsinlər. O vaxt biz yaxşı xatırlayırıq ki, erməni millətçiləri, o cümlədən Cəllad Balayan, Kaputikyan və digərləri azərbaycanlılara qarşı açıq-aydın etnik ayrı-seçkilik toxumları səpirdilər. Ümumittifaq mətbuatında bu barədə açıq söhbət gedirdi və ümumiyyətlə, Azərbaycana qarşı ədalətsiz münasibət göstərilirdi. Bütün bunlar 1987-ci ildən sonra baş vermişdir. Çünki 1987-ci ildə Heydər Əliyev bütün vəzifələrdən gedəndən sonra Azərbaycan hədəf seçildi. O dövrü təhlil edərkən bir daha görürük ki, bütün bu hadisələr erməni millətçilərinin və onların havadarlarının məkrli planının bir hissəsi idi. Baxın, 1985-ci ildən sonra Heydər Əliyev Qorbaçovun yarıtmaz siyasətinə qarşı açıq şəkildə çıxış etmişdi, buna görə ona qarşı kampaniya başlamışdı, həm mərkəzi mətbuat orqanlarında, həm də ki, Azərbaycanda. Burada da milli satqınlar mərkəzə donoslar yazmağa başlamışdılar. 1987-ci ildə Heydər Əliyev vəzifədən gedəndən sonra iki həftə keçməmiş erməni millətçiləri Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana vermək haqqında beynəlxalq mətbuatda və sovet mətbuatında məsələ qaldırmışlar. Artıq Dağlıq Qarabağda separatçı meyillərə elə bil ki, yaşıl işıq yandırıldı. Heydər Əliyev vəzifədən gedəndən 3 ay sonra Sumqayıt hadisələri baş vermişdir. Sumqayıt hadisələri də məkrli planın tərkib hissəsi idi. Plan ondan ibarət idi ki, Heydər Əliyev hakimiyyətdən getsin. Çünki onun Siyasi Büronun üzvü kimi fəaliyyəti erməni millətçilərə imkan vermirdi ki, məsələ qaldırsınlar. Onlar belə cəhdlər edirdilər, amma Heydər Əliyev bunun qarşısını layiqincə alırdı. Yəni, plan onu vəzifədən uzaqlaşdırmaq və bu məqsədlə buradakı yerli satqınlar, xainlər vasitəsilə donos göndərmək, erməni millətçiləri tərəfindən məsələ qaldırmaq idi ki, Dağlıq Qarabağ Azərbaycanın tərkibində qala bilməz. Beləliklə, iğtişaş törətmək, hansı ki Sumqayıtda baş verdi və ondan sonra məsələ qaldırmaq ki, ermənilər Azərbaycanın tərkibində təhlükəsiz şəkildə yaşaya bilmirlər. Buna görə də Dağlıq Qarabağ Azərbaycandan ayrılıb Ermənistana birləşdirilməlidir. Bax, plan bundan ibarət idi və əfsuslar olsun ki, bu plan həyata keçdi.

Sumqayıt hadisələri erməni millətçilərinin təxribatı idi. Biz bunu açıq deməliyik. Çünki artıq neçə ildir ki, erməni millətçiləri Sumqayıt şəhərinə qara yaxmaq, ləkə vurmaq istəyirlər. Tamamilə əsassızdır və cəfəngdir. Tam məsuliyyətlə deyirəm ki, Sumqayıt hadisələrini törədən erməni millətçiləridir və erməni dəstələridir. Biz hamımız yaxşı bilirik ki, on nəfərə yaxın ermənini öldürən milliyyətcə erməni Qriqoryan və onun quldur dəstəsi idi. Sonra nə baş verdi? İstintaqı Moskvadan gəlmiş qrup aparırdı, yəni, tam ədalətli aparırdı. Verilmiş bütün ifadələr, şahidlərin ifadələri, üzləşmələr sübut etmişdi ki, həmin o, Qriqoryan erməni xalqının nümayəndələrini qətlə yetirmişdir. O, həbs edilir, bütün sübutlar təsdiq olunur. Ondan sonra o, cəza çəkmək üçün Ermənistana göndərilir və ancaq orada sərbəst buraxılır. Bax, sual yaranır. On nəfərə yaxın ermənini öldürən bir qatili Ermənistan niyə sərbəst buraxır? Ona görə buraxır ki, o, onların tapşırıqlarını icra edirdi. Sumqayıt hadisələrindən istifadə edib Azərbaycana qarşı qarayaxma kampaniyası daha geniş vüsət almışdır və nəticə etibarilə Dağlıq Qarabağda münaqişə baş vermişdir. Mən dəfələrlə bunu demişəm, əgər, Heydər Əliyev o vaxt Azərbaycanda olsaydı, heç vaxt Dağlıq Qarabağ münaqişəsi baş verməzdi, heç vaxt torpaqlarımız işğal altına düşməzdi.

Ondan sonra bizi yeni, çox ağır sınaq və faciə gözləyirdi - Yanvar faciəsi. Hansı ki, yenə də Qorbaçov öz xalqına qarşı böyük cinayət törədərək dinc əhalini qırdırdı. Yüzdən çox günahsız insan həlak oldu. Azərbaycan xalqının qanı axıdıldı. Əfsuslar olsun ki, o vaxtkı Azərbaycan rəhbərliyi tamamilə iflic vəziyyətdə idi. O vaxt respublikaya rəhbərlik edən, antimilli siyasətlə fərqlənən Vəzirov respublikanı tərk edib hərbi təyyarə ilə Moskvaya qaçdı.

**Ardı Səh. 4**

# "Bu gün Sumqayıt müasir, sürətlə inkişaf edən, gündən-günə abadlaşan gözəl şəhərdir"

*Prezident İlham Əliyev noyabrın 21-də Sumqayıt şəhərində səfərdə olub*

Əvvəli səh. 3



Heç bir rəhbər işçi bu qanlı cinayəti qınamadı. Ancaq o vaxt pensiyada olan Heydər Əliyev ona qarşı çox çirkin kampaniya gedə-gedə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək, - mən də onun yanında idim, - öz səsini ucaltdı, bütün dünyaya Yanvar faciəsi haqqında məlumat verdi. Sovet İttifaqının rəhbərliyini qınadı, onların siyasətini pislədi və uzun illər xidmət etdiyi Kommunist Partiyasının sıralarını tərk etdi.

O vaxt Sovet İttifaqının dağılmasına hələ iki il vaxt var idi. Heç kimin ağlına gələ bilməzdi ki, bir gün Sovet İttifaqı dağılacaq. Yəni, bu addımı atarkən Heydər Əliyev təcrübəli rəhbər kimi bilirdi ki, ona qarşı çox böyük təzyiqlər olacaq və nəinki təzyiqlər, onun hətta həyatı təhlükə altına düşə bilər. Belə də oldu. Sonrakı tarix bunu bir daha göstərdi, onun həbs edilməsi haqqında qərar verildi. Bakıya gəlməli idi, həmin gün onun yaxın tərəfdarı qətlə yetirildi. Ondan sonra onun səfəri təxirə salındı. Sonra Bakıya gəldi. O vaxtkı rəhbərlik ona burada da yaşamağa imkan vermədi, Naxçıvana üz tutdu. Beləliklə, Azərbaycanın yeni dövrü başladı.




Bu gün, noyabrın 21-i Naxçıvanda Yeni Azərbaycan Partiyasının yaranması günüdür. Çünki o vaxt özünü demokrat adlandıran, hakimiyyəti qanunsuz yollarla zəbt etmiş satqın AXC-Müsavat hakimiyyəti imkan vermədi ki, Yeni Azərbaycan Partiyasının təsis qurultayı Bakıda keçirilsin. Vətənpərvər insanlar, Heydər Əliyevi dəstəkləyən insanlar, ziyalılar Naxçıvana gedib soyuq, işıqsız şəraitdə, - hər on dəqiqədən bir işıqlar kəsilirdi, - Yeni Azərbaycan Partiyasını təsis etdilər. Artıq Azərbaycanın yeni dövrü başlamışdır. Məhz Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağını dövlət bayrağı kimi ucaltdı və Azərbaycan Ali Soveti qarşısında vəsatət qaldırdı ki, onlar da eyni addımı atsınlar. Onlara hələ bir neçə ay lazım oldu və artıq görəndə ki, Sovet İttifaqı çökür, ondan sonra bunu etdilər.

Biz bu tarixi yaddan çıxarmamalıyıq və gənclər bu tarixi bilməlidirlər. Bugünkü reallıqları düzgün təhlil etmək, bu reallıqlara düzgün qiymət vermək üçün biz bu acı dövrü yaddan çıxarmamalıyıq. Elə etməliyik ki, gənclər də bunu bilsinlər, hesab etməsinlər ki, bugünkü inkişaf, bugünkü tərəqqi göydən düşüb. Bilsinlər ki, biz buna qanımız, canımız bahasına nail olmuşuq. Biz tariximizin ən rüsvayçı səhifələrini də vərəqləməliyik. Ona görə ki, o rüsvayçı dövr təkrarlanmasın.

Bunu deyəndə, əlbəttə ki, mən, ilk növbədə, AXC-Müsavat dövrünü qeyd edirəm. 1992-ci ildə hakimiyyəti qanunsuz yollarla zəbt etmiş o antimilli dəstə Azərbaycanı uçuruma aparırdı. Azərbaycan əldən gedirdi. Yenicə bərpa edilmiş müstəqillik əldən gedirdi, ölkədə xaos, anarxiya, talançılıq, oğurluq, özbaşınalıq, böhran hökm sürürdü. Ermənilər orada torpaqlarımızı işğal edirdi, Xalq Cəbhəsi isə vətəndaş müharibəsinə start vermiş və Gəncə şəhərini bombalamağa başlamışdı. Vətəndaş müharibəsi ən ağır müharibədir. Çünki qardaş qanı axıdılır. Ona da getdilər ki, öz laxlamış hakimiyyətlərini qoruya bilsinlər. Görəndə ki, qoruya bilmirlər, Heydər Əliyevə müraciət etdilər ki, gəl, bizi xilas elə. Yalvarırdılar, mən bunun şahidiyəm. Üç dəfə təyyarə göndərmişdilər ki, bizi xilas elə, çünki artıq gəlirdilər bunları öldürməyə, yaxud da ki, yıxmağa. Qaçıb gizləndilər, bəziləri guya vəzifələrini dondurdular. O vaxt belə cəfəng ifadələr işlədilirdi. Əgər Heydər Əliyev gəlməsəydi, həm Azərbaycan dağılacaqdı, həm də, o antimilli AXC-Müsavat dəstəsi öz cəzasını alacaqdı. Yəni, Heydər Əliyevin humanistliyi onların layiq olduqları bu cəzadan xilas etdi.

Başqa cür ola da bilməzdi. Çünki baxın, bizi kimlər idarə edirdi. İndi bu tarix yaddan çıxır, amma çıxmamalıdır. Baxın, Azərbaycan xalqı hansı rəzil dövrdə yaşayırdı. Baxın, kimlər idi. Mən bir daha deməliyəm ki, yaddan çıxmasın, gənclər də bilsin. Prezident elmi işçi, zəif, iradəsiz bir adam idi. Heç vaxt heç bir idarəyə rəhbərlik etməmişdi. Hətta kiçik bir idarənin rəhbəri olmamışdı. Sadəcə, küçələrdə, orada-burada çığırıb bağırmaqla gəldi prezident oldu və ölkəni rüsvay elədi. Görün, hansı kadrlar seçildi. İndi bunu təsəvvür etmək çətindir ki, - bağışlayın sözümə görə, - belə yaramaz adamlar Azərbaycana rəhbərlik edirdi. Baş nazir, - o da elmi işçi idi. O da heç bir dissertasiya müdafiə edə bilməmişdi. Hamı yaxşı bilir, indi bu, sirr deyil, mövsümi ticarətlə məşğul olan adam Baş nazir təyin edildi. Məhz onun dövründə "otkat" sözü bizim lüğətimizə daxil edildi. Gəldi ki, ölkəni talan eləsin, onun sərvətini oğurlasın, tramvay xətlərini kəsdirsin, göndərsin İrana və pul əldə etsin. Bax, bu Baş nazir idi. Parlamentin sədri, - o da elmi işçi idi. On bir il aspiranturada oxumuşdu. Təsəvvür edin, on bir il. Dissertasiyanı müdafiə edə bilməmişdi. Rəhmətlik akademik Ziya Bünyadovun onun haqqında dediklərini mən təkrarlamaq istəmirəm. Sadəcə olaraq, bunu özümə rəva bilmirəm. Uğursuz aspirant, biliksiz, savadsız adam parlamentin sədri oldu. Ondan nə gözləmək olardı? Yaxud da ki, dövlət katibi. İstəyirdi komsomolda öz karyerasını artırsın, sonra partiya işinə keçsin və karyerist kimi hansısa bir vəzifəyə sahib olsun. Belələrinə siyasi dönük, flüger deyirlər. Onun bütün tarixi satqınlıq tarixidir. Komsomolçuları satıb, öz partiya himayədarlarını satıb, ondan sonra qoşulub Xalq Cəbhəsinə, orada da Əbülfəz Elçibəyi satıb. Bunu cəbhəçilər yaxşı bilirlər. Əbülfəz Elçibəy xəstələnəndə ən çox sevinən elə o idi. Mən bunu dəqiq bilirəm, bu məlumat var. Sevinirdi ki, xəstələnib öləcəkdir, bu da keçəcəkdir onun yerinə.

İndi son hadisələr də göstərdi ki, o, hansı hünərə sahibdir. Yəni, bu isterika, bu paranoya, bu qorxaqlıq, - özünü lider sayan hansı adam özünə rəva bilər ki, bunu nümayiş etdirsin və ondan sonra bütün millətə bəyan etsin ki, mənə qarşı zor tətbiq ediblər. Bu, yalandır. Özünə hörmət edən, ləyaqəti üstün tutan hansı adam belə söz deyər. Bax, bu adam prezidentlik iddiasında olub və bu gün vaxtilə xalq hərəkatı tərəfindən yaradılmış Xalq Cəbhəsinə rəhbərlik etməyə çalışır.

Nazirlərə fikir verin, kimlər idi? Müdafiə naziri riyaziyyat müəllimi, savadsızın biri, demaqoq, küçə adamı. Nə ilə yadda qaldı? Şuşanı ermənilərə satdı. O, Şuşanı birinci tərk etdi. Özü demişdi ki, - o kadrlar var, tarix hər şeyi saxlayır, arxivlər var, - Şuşa əldən getsə, başıma güllə vuracağam. Yenə də meydanlarda sülənir, özünü elə aparır ki, guya heç kim bilmir, bunun keçmişi nədir. Bax, belə bir adam Müdafiə naziri ola bilərdimi? Belə bir adam bizim ərazi bütövlüyümüzü qoruya bilərdimi? Mən hələ onun biznes tərəfini demirəm. Burada yığdıqları pulları Moskvaya daşıyırdı. Orada özü üçün böyük biznes qurmuşdu. Lazım olarsa, bu barədə də məlumat veriləcək. Mən 2004-cü ildə onu əfv etdim. Çünki əsaslı olaraq ömürlük cəzaya məhkum edilmişdi. Şuşanı satana qarşı gərək o cəza veriləydi. Bax, ona görə bizim torpaqlarımız işğal altına düşmüşdür. Mən humanistlik göstərdim, onu əfv etdim.

Ondan sonra Daxili işlər naziri, nə ilə seçilirdi? Vəzifə sahibi kimi gedib canlı efirdə jurnalisti döymüşdü. Sən bir adi adam kimi əgər kiməsə qarşı nəsə eləsəydin, tutaq ki, sənə toxunublar, mən deyərdim ki, ola bilər, ləyaqətinə toxunub, emosiyalarını cilovlaya bilmir. Vəzifə sahibi ola-ola mühafizəçilərlə gəlib, jurnalisti döyüb və bununla da fərəhlənirdi. Sən gedib doğma rayonunu müdafiə edərdin. Doğulduğun Kəlbəcər əldən gedəndə, işğal altına düşəndə sən nazir idin. Qaçmısan, siçan kimi gizlənməyə deşik axtarmısan. O vaxt Naxçıvana desant göndərirdi və demişdi ki, Heydər Əliyevin başına güllə vuracağam. Naxçıvanlılar ona elə cavab verdilər ki, qorxusundan bilmirdi hara getsin. Oraya desant da getmədi. Ümumiyyətlə, o vaxt orada çevriliş cəhdi olmuşdu. İndi yenə meydanda sülənir, elə bilir ki, hamının yadından çıxıb.

Ardı Səh. 5

# “Bu gün Sumqayıt müasir, sürətlə inkişaf edən, gündən-günə abadlaşan gözəl şəhərdir”

## *Prezident İlham Əliyev noyabrın 21-də Sumqayıt şəhərində səfərdə olub*

Əvvəli Səh. 4

Baş prokuror Gəncədə girov götürülmüşdü, Prezidentə həbs əmri vermişdi. Bu da Baş prokuror. Xarici İşlər naziri. Heç bir xarici dildə danışa bilməyən, hətta Azərbaycan dilində nə dediyini heç kim başa düşmürdü. Bax, budur xalq cəbhəsi, müsavat hakimiyyəti. Ona görə biz bu faciəvi vəziyyətlə üzləşmişdik. Əgər Heydər Əliyev xalqın tələbi ilə 1993-cü ildə Azərbaycana gəlməsəydi, Azərbaycan dağılacaqdı. Bunların da hərəsi qaçıb bir yerdə gizlənəcəkdilər, necə ki qaçıb gizlənmişdilər. Beləliklə, bizim müstəqilliyimiz XX əsrin əvvəllərində olduğu kimi yenə də yarımçıq qalacaqdı.

Heydər Əliyevin hakimiyyətə gəlməsi, əlbəttə ki, tarixi hadisədir. Bu gün biz onun yolu ilə gedirik. Onun yürütdüyü siyasət bu gün yaşayır, zənginləşir. Əlbəttə, həyat yerində durmur. Qarşımızda yeni çağırışlar, yeni vəzifələr durur və biz bu vəzifələri icra edirik. Çünki bu gün Azərbaycanın uğurlu inkişafı aparılan islahatlarla sıx bağlıdır. Ulu Öndərin Sumqayıt şəhərinə də həmişə çox isti münasibəti olmuşdur. Həm sovet vaxtında, həm də müstəqillik dövründə dəfələrlə Sumqayıtda olmuşdur. Mən də bu siyasəti davam etdirirəm. Mənim Sumqayıta bugünkü səfərim 15 il ərzində sayca 24-cü səfərdir. Yəni, bu, özlüyündə göstərir ki, Sumqayıta daim diqqət, qayğı göstərilir.

Əlbəttə ki, Sumqayıtın problemlərinin həlli istiqamətində böyük işlər görülüb. İlk növbədə, infrastruktur müasirləşdirilməli idi. Bu məqsədlə hələ 2005-ci ildə 525 meqavat gücündə elektrik stansiyası istifadəyə verildi, böyük vəsait xərcləndi. Qazlaşdırmanın səviyyəsi 100 faizə çatıbdır. İçməli su problemi həllini tapıbdır. Şəhərdaxili yollar yenidən tikilir, abadlaşdırılır, təmir olunur. Bakı-Sumqayıt yolu tikildi. İndi göstəriş vermişəm ki, yol genişləndirilsin. Çünki artan nəqliyyat sıxlıq, tıxac yaradır. Biz bunu da həll edəcəyik. Bakı-Sumqayıt qatarı artıq fəaliyyət göstərir. Özü də dünyanın ən qabaqcıl şirkətinin istehsalı olan ikimərtəbəli, çox rahat “Stadler” vaqonlarıdır. Verilmiş kredit hesabına şəhər nəqliyyatı üçün müasir avtobuslar gətirildi. Yəni, bütün bu işlər planlı şəkildə həyata keçirilir.

Şəhərin kommunal təsərrüfatı yenilənir. Lift təsərrüfatının təqribən 80 faizi yenilənib. Sumqayıtda 1300-dən çox hündürmərtəbəli binanın təxminən mininin artıq dam örtüyü vurulubdur və qalan binaların da dam örtükləri vurulacaq.

“ASAN xidmət” mərkəzi yaradılmışdır. İndi göstəriş vermişəm ki, ikinci “ASAN xidmət” yaradılsın. Çünki tələbat artır və bəzən növbələr yaranır. Biz buna imkan verə bilmərik.

Sosial infrastruktur yenilənir. Məcburi köçkünlər üçün yeni şəhərciklər, evlər tikilir. Bu il 1800 ailə artıq yerləşibdir. Gələn il minimum 3 min köçkün ailəsi yeni evlərə köçəcək. Köçkünlər üçün Sumqayıtda evlərin tikintisi bundan sonra da təmin ediləcək ki, yəni, evsiz-eşiksiz, pis vəziyyətdə yataqxanalarda, bağçalarda və s. yerlərdə yaşayan köçkünlər yaxşı evlərə köçürülsünlər. Biz bunu da edəcəyik.

Məktəb tikintisi gedir. 1 saylı xəstəxana mənim göstərişimlə artıq 5-6 ildir ki, təmirdən çıxıb. İndi 2 saylı xəstəxananın təmiri və əslində yenidən tikilməsi üçün vəsait ayrıldı. Biz bunu da edəcəyik.

Sumqayıt, əlbəttə, sənaye şəhəri kimi inkişaf edir. Ancaq bugünkü sənaye bugünkü çağırışlara cavab verir. Köhnədən qalan sənaye müəssisələrinin demək olar ki, hamısı artıq fəaliyyətini dayandırıb. O ərazidə - yüz hektarla ölçülən ərazilərdə sənaye parkları yaradılıb - Sumqayıt Texnologiyalar Parkı və Sumqayıt Kimya Sənaye Parkı. Sumqayıt Texnologiyalar Parkında 10, Sumqayıt Kimya Sənaye Parkında isə 13 zavod fəaliyyət göstərir və əlavə 7 zavod yəqin ki, gələn il fəaliyyətə başlayacaq. Sumqayıt Kimya Sənaye Parkında 20 rezident var. Qoyulmuş sərmayə milyardlarla dollar səviyyəsindədir. Onların arasında dövlət xətti ilə tikilmiş “SOCAR Polymer”, karbamid və digər zavodlar var. Özəl sektor da çox böyük maraq göstərir. Ona görə Sumqayıt bu gün müasir sənaye şəhəridir, Cənubi Qafqazın ikinci sənaye şəhəridir. Sumqayıt müəssisələrində ildə təqribən 2 milyard manatlığa yaxın məhsul istehsal olunur. Ona görə Sumqayıt bundan sonra da müasir sənaye şəhəri kimi inkişaf edəcək. Əziz dostlar, bu bayram münasibətilə sizi bir daha təbrik edirəm, yeni uğurlar, qələbələr arzulayıram. Sağ olun.

X X X

Daha sonra Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov, “Şöhrət” ordenli Əməkdar müəllim Ofeliya Babayeva, “Sumqayıt Kimya Sənaye Parkı” MMC-nin direktoru Nazim Talıbov, Sumqayıtdakı 1 nömrəli poliklinikanın baş həkimi Arzu Bəndəliyeva, Əməkdar inşaatçı Maqsud Maqsudov, Sumqayıt Dövlət Dram Teatrının aktyoru, Əməkdar artist Cəlal Məmmədov çıxış edərək ölkə rəhbərliyi tərəfindən Sumqayıt şəhərinə göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

# “Mən şadam ki, münasibətlər çox uğurla inkişaf edir”

## *Prezident İlham Əliyev Bolqarıstanın Daxili İşlər nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də Bolqarıstan Respublikasının Daxili İşlər naziri Mladen Marinovun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

***AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinin üzvlərini salamlayan Prezident İlham Əliyev bildirib ki, ölkələrimiz arasında çox fəal siyasi dialoq mövcuddur:***

-Xoş gəlmisiniz. Düşünürəm ki, ölkələrimizi bir-birinə bağlayan məsələlər haqqında danışmaq üçün yaxşı imkandır. Mən şadam ki, münasibətlər çox uğurla inkişaf edir. Əlbəttə, yüksək səviyyədə qarşılıqlı səfərlər bizim əlaqələrimizi möhkəmləndirir. Mən bir neçə dəfə, o cümlədən rəsmi səfərlə sizin ölkənizdə olmuşam. Bolqarıstan prezidentləri dəfələrlə Azərbaycana səfər ediblər. Həmçinin Baş Nazir cənab Borisov da bizim qonağımız olub. Beləliklə, ölkələrimiz arasında çox fəal siyasi dialoq mövcuddur.

Əlbəttə ki, biz energetika sahəsində də əməkdaşlıq edirik. Bolqarıstan Cənub Qaz Dəhlizinin Məşvərət Şurasının işində həmişə yüksək səviyyədə, nazir səviyyəsində iştirak edir. Əminəm ki, ölkələrimizi birləşdirən bu layihə yaxın vaxtda uğurla başa çatdırılacaq. Beləliklə, uzun illər ərzində biz energetika gündəmi ilə bağlı olacağıq. Lakin, həmçinin əmtəə dövriyyəsinin də artırılmasını nəzərdə tuturuq. Düşünürəm ki, Cənub Qaz Dəhlizi layihəsinin reallaşdırılmasından sonra ölkələrimizin biznes qurumları bir-biri ilə daha çox əlaqə saxlayacaq və daha sıx əməkdaşlıq edəcəklər.

Gələcək əməkdaşlığın daha bir istiqaməti nəqliyyat sahəsidir. Azərbaycan artıq qonşu ölkələrə və digər dövlətlərə yüklərin



Şərq-Qərb marşrutu ilə daşınması üçün tranzit xidmətləri göstərir. Beləliklə, əminəm ki, bu mühüm dəhlizin genişləndirilməsi ilə ölkələrimizdən yük göndərənlər əməkdaşlıq üçün əlavə imkanlar əldə edəcəklər.

Əlbəttə, siz səfər çərçivəsində həm Daxili İşlər nazirlikləri arasında əməkdaşlıq mövzusuna, həm də ictimai asayişin, təhlükəsizliyin təmin edilməsi ilə bağlı məsələlərə toxunacaqsınız. Təcrübə mübadiləsi də böyük əhəmiyyət kəsb edir. Daxili işlər orqanları ictimai asayişin qorunması, vətəndaşların dinc yaşayışının təmin edilməsi üzrə mühüm vəzifəni yerinə yetirirlər. Lakin qeyd etməliyəm ki, artıq uzun illər ərzində həm Bolqarıstanda, həm də Azərbaycanda ictimai-siyasi sabitliyin olduğunu nəzərə alaraq, polis orqanlarının işi sizin bəzi həmkarlarınızın işindən daha azdır. Biz bir sıra inkişaf etmiş ölkələrin polis orqanlarının necə davrandığını, onları döydüklərini, öldürdüklərini, xəsarət yetirdiklərini, qaz, su, dəyənəklə, itlərlə qovduqlarını və çox böyük qəddarlıq nümayiş etdirdiklərini televiziyada görürük. Həm də biz bu cür halları dünyanın müxtəlif ölkələrində, müxtəlif regionlarında, o cümlədən ən inkişaf etmiş ölkələrdə görürük. Lakin Azərbaycanda bizi bir məsələ həmişə maraqlandırır, nə üçün insanların hüquqlarının təmininə cavabdeh olan beynəlxalq təşkilatlar bəzən dinc nümayişçilərin qəddarcasına, qeyri-insani dağıdılmasını görərkən susurlar? Azərbaycanda hansısa kiçik epizod baş verdikdə isə, məsələn, təxminən bir ay əvvəl qanunsuz aksiyanın qarşısının heç bir güc tətbiq etmədən alınmasından sonra beynəlxalq təşkilatlar, bəzi ölkələrin Azərbaycandakı səfirləri bəyanatlar verməyə başlayıblar və az qala hökumətimizi ittiham etməyə cəhd ediblər. Bu hal Avropada həm də qurbanlarla, qətllərlə, xəsarətlərlə, nümayişlərin dağıdılması ilə baş verdikdə isə hüquq müdafiə təşkilatları və beynəlxalq strukturlar susurlar. Bu, ikili standartların təzahürüdür və bu ikili standartlar onları nümayiş etdirən həmin təşkilatları nüfuzdan salır. Kimisə hər hansı məsələdə ittiham etmək üçün, ilk növbədə, buna mənəvi haqqın olmalıdır. Bizi isə bəzən insan hüquqlarının kobud şəkildə pozanlar və dinc nümayişçiləri qəddarcasına dağıdanlar ittiham etməyə cəhd göstərirlər.

Lakin bir daha demək istəyirəm ki, istər Bolqarıstanda, istərsə də Azərbaycanda ictimai-siyasi sabitlik və asayiş xalqın iradəsi ilə təmin olunur. Sizin ölkəniz mənim dostum cənab Borisovun rəhbərliyi ilə inkişaf və sabitlik yolu ilə irəliləyir. Biz bunu yüksək qiymətləndirir və sizi bütün bu uğurlar münasibətilə təbrik edirik. Beləliklə, mən bizim daxili işlər orqanlarının işinin o qədər də çox olmadığını dedikdə məhz bunu nəzərdə tuturam. Arzu edirəm ki, həmişə sizin işiniz az olsun. Bir daha xoş gəlmisiniz.

Daxili İşlər naziri Mladen Marinov :

- Hörmətli cənab Prezident, çox sağ olun. Sizin məni qəbul etməyiniz mənim üçün böyük şərəfdir. İcazə verin, Sizi cənab Baş Nazir Boyko Borisovun adından salamlayım. Azərbaycan bizim həm energetika sahəsində, həm də gələcək nəqliyyat dəhlizlərinin inkişafında, iqtisadi əlaqələr üzrə və təhlükəsizlik sahəsində strateji tərəfdaşımızdır. Cənub Qaz Dəhlizinin tikintisinin vaxtında başa çatdırılmasına nail olmaq və beləliklə, bir milyard kubmetr qaz tədarükünü təmin etmək bizim üçün çox vacibdir.

Prezident İlham Əliyev Bolqarıstanın Baş Naziri Boyko Borisovun salamlarına görə minnətdarlığını bildirdi, onun salamlarını Bolqarıstanın Baş Nazirinə çatdırmağı xahiş etdi.

# "Azərbaycan Rusiya ilə qarşılıqlı münasibətlərə müstəsna dərəcədə böyük əhəmiyyət verir"

*Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Rusiya Hökumətinin sədri Dmitri Medvedevlə görüşüb*

***Rusiya Federasiyasında rəsmi səfərdə olan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva noyabrın 21-də Rusiya Federasiyası Hökumətinin sədri Dmitri Medvedevlə görüşüb. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Rusiya Hökumətinin Qəbullar Evinə gəldi. Rusiya Hökumətinin sədri Dmitri Medvedev Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanı qarşıladı.***



Sonra Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın Rusiya Federasiyası Hökumətinin sədri Dmitri Medvedevlə görüşü oldu. Azərbaycanın Birinci vitse-prezidentini salamlayan Rusiya Hökumətinin sədri Dmitri Medvedev dedi :

-Hörmətli Mehriban Arif qızı.

Hörmətli dostlar, həmkarlar.

Sizi ölkəmizdə - Rusiyada ürəkdən salamlayıram. Əlbəttə, Azərbaycana səfərimi xatırlayıram. Bu, sonuncu dəfə 2016-cı ilin aprelində olub. Hərçənd sonra bizim bir neçə dəfə görüşmək imkanımız olub. İlk növbədə, xahiş edirəm, Azərbaycan Prezidenti İlham Heydər oğlu Əliyevə salamlarımı çatdırasınız. Sizin ölkəmizə səfərinizin çox yaxşı proqramının olmasından məmnunluğumu ifadə etmək istəyirəm. O, mükəmməl və zəngindir. Buraya bizim Sizinlə danışıqlarımız, Rusiya Federasiyasının Prezidenti ilə sabah keçirəcəyiniz görüş, Rusiya regionlarının böyük bir hissəsinin iştirak edəcəyi genişmiqyaslı regionlararası forum daxildir. Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində "Azərbaycan" pavilyonunun açılışı da çox əlamətdar hadisədir. Bütün bunlar ölkələrimiz arasında mehriban qonşuluğu, tərəfdaşlığı və dostluğu tam şəkildə əks etdirir. Sizin səfəriniz də bunun əyani təzahürüdür. Ona görə Sizi ürəkdən salamlayıram və istər iqtisadiyyatda, istərsə də başqa sahələrdə bizim qarşılıqlı fəaliyyətimizin ən mühüm problemlərini müzakirə etməyi təklif edirəm.

***



Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva:

-Hörmətli Dmitri Anatolyeviç.

Hörmətli həmkarlar.

Hər şeydən əvvəl Sizin ölkənizə rəsmi səfərə dəvətə görə Rusiya Federasiyasının rəhbərliyinə dərin minnətdarlığımı bildirmək istəyirəm. Mən yenidən Moskvada olmağıma çox şadam. Moskva mənim üçün doğma şəhərdir. Mənim tələbəlik illərim burada keçib. Sizinlə görüşə çox şadam. Həmçinin fürsətdən istifadə edərək Sizə Azərbaycan Respublikasının Prezidentinin salamlarını və ən xoş arzularını çatdırmaq istərdim.

Azərbaycan Rusiya ilə qarşılıqlı münasibətlərə müstəsna dərəcədə böyük əhəmiyyət verir. Ölkələrimizi möhkəm, qədim dostluq və mehriban qonşuluq əlaqələri birləşdirir. Azərbaycan və Rusiya prezidentlərinin siyasi iradəsi, həmçinin hər iki tərəfin birgə səyləri sayəsində bu gün münasibətlərimiz strateji tərəfdaşlıq kimi xarakterizə olunur. Fəal siyasi dialoq mövcuddur. Azərbaycan və Rusiya prezidentləri mütəmadi olaraq görüşlər keçirirlər. Bu görüşlər demək olar ki, bütün sahələrdə münasibətlərin inkişafına güclü impuls və dinamizm verir.

Şübhəsiz ki, iqtisadi əməkdaşlıq bizim ikitərəfli gündəliyimizin ən mühüm komponentlərindən biridir. Rusiya Azərbaycanın əsas ticarət tərəfdaşlarından biridir, qeyri-neft məhsullarının idxalı üzrə birinci yeri tutur. Əgər biz göstəricilərə baxsaq, onlar böyük nikbinlik doğurur. Biz hər il artım qeyd edirik, əmtəə dövriyyəsi artır. Ötən il 19 faiz artım olub və 2,6 milyard ABŞ dolları təşkil edib. Bu ilin 9 ayında isə artım 24 faizə çatıb. Yəni, bu göstəricilər olduqca nikbindir. Qarşılıqlı sərmayə qoyuluşu artır. Azərbaycan iqtisadiyyatına yatırılan Rusiya sərmayələrinin həcmi 4,9 milyard dollardır, Azərbaycan Rusiyaya 1,2 milyard dollar sərmayə qoyub. Mühüm olan odur ki, hökumətlərarası komissiyanın təhlilinə görə, bu potensialdan tam şəkildə istifadə edilməyib, daha 2-3 dəfə artım mümkündür.

Hörmətli Dmitri Anatolyeviç, Siz regionlararası əməkdaşlığı qeyd etdiniz. Həqiqətən, bu, bizim ikitərəfli qarşılıqlı fəaliyyətimizin çox mühüm tərkib hissəsidir. Mənim səfərim çərçivəsində X regionlararası forum keçiriləcək. Turizm sahəsində yaxşı göstəricilər var. Rusiyadan bizim ölkəmizə səyahət edən turistlərin sayı artır. Ötən il 900 min rusiyalı Azərbaycanda olub. Cari ildə həmin göstəricinin artacağı gözlənilir.

Əlbəttə, mən humanitar əlaqələrimizdən danışmaq istəyirəm. Çünki hesab edirəm ki, ölkələrimiz arasında humanitar əlaqələr, xüsusən təhsil sahəsində nümunəvidir. Azərbaycanda rus dilinə və rus mədəniyyətinə böyük hörmətlə yanaşırlar. Bizim ölkəmizdə rus dilində təhsil tam şəkildə qorunub saxlanılıb, 338 məktəbdə tədris rus dilində aparılır, 14 ali məktəbdə rus dilində bölmələr var, 50 məktəbdə Təhsil Nazirliyinin rus dilinin intensiv tədrisi pilot layihəsi uğurla həyata keçirilir. Əlbəttə, ali təhsil səviyyəsində qarşılıqlı fəaliyyət var. Lomonosov adına Moskva Dövlət Universitetinin, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin filialları Azərbaycanda uğurla fəaliyyət göstərir. Düşünürəm ki, bu sahədə də böyük potensial mövcuddur. Ümidvaram ki, gələcəkdə əməkdaşlığımız bütün sahələr üzrə genişlənəcək, ölkələrimizin və xalqlarımızın rifahına xidmət edəcək.

Səmimi qəbula, qonaqpərvərliyinizə görə Sizə bir daha dərin təşəkkürümü bildirmək və ən xoş arzularımı çatdırmaq istəyirəm. Sağ olun.

# Birinci vitse-prezident Mehriban Əliyeva “Lujniki” Olimpiya Kompleksində Gimnastika Mərkəzi ilə tanış olub









***Noyabrın 21-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Rusiyaya rəsmi səfəri çərçivəsində “Lujniki” Olimpiya Kompleksində Ümumrusiya Bədii Gimnastika Federasiyasının prezidenti İrina Viner-Usmanovanın Gimnastika Mərkəzi ilə tanış olub.***

***AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanı “Lujniki” Olimpiya Kompleksində Ümumrusiya Bədii Gimnastika Federasiyasının prezidenti İrina Viner-Usmanova qarşıladı.***

Birinci vitse-prezident Mehriban Əliyeva burada İrina Viner-Usmanovanın Gimnastika Mərkəzi ilə tanış oldu.

Məlumat verildi ki, bu ilin iyun ayında açılan Gimnastika Mərkəzində məşq zalları, məşqçilər və hakimlər üçün otaqlar, multimedia muzeyi, şərhçi otaqları, yeməkxana, press-bar və emalatxanalar var. Mərkəzdə bədii gimnastikanın tarixində ilk multimedia muzeyi yaradılıb. Muzeyin ekspozisiyasına taç-masa ilə birlikdə 5 LED ekran daxildir. Həmin ekranlar vasitəsilə bədii gimnastikanın tarixi, bu idman növündə fərqlənənlər, Rusiyanın gimnastika məktəbləri haqqında məlumatlar əks olunur.

Sonra əsas arena ilə tanışlıq oldu. Bildirildi ki, Gimnastika Mərkəzinin yerləşdiyi ərazinin ümumi sahəsi 25,7 min kvadratmetr olmaqla beş mərtəbədən və nadir layihə əsasında informasiya modelləşdirilməsi texnologiyalarının tətbiqi ilə bir yeraltı mərtəbədən ibarətdir. Binanın gimnastika lenti formasında damı Gimnastika Mərkəzinin rəmzinə çevrilib. Bina beynəlxalq səviyyəli yarışlar keçirilməsinin və idmançıların peşəkar hazırlığının bütün tələblərinə cavab verir. Gimnastika Mərkəzi yarış vaxtı 500 idmançı və 4 minədək azarkeş tutumuna malikdir.

Qeyd edək ki, Rusiyada müasir bədii gimnastika Bədii Gimnastika Federasiyasının prezidenti, milli yığmanın baş məşqçisi, idman aləmində nüfuzlu şəxslərdən olan İrina Viner-Usmanovanın rəhbərliyi ilə inkişaf edir. Onun yetirmələri sırasında 6 Olimpiya medalçısı var. Mərkəz üç yaşından başlayaraq uşaqları qəbul edir. Burada, həmçinin rəqs və xoreoqrafiya dərsləri tədris olunur.



İrina Viner-Usmanovanın ölkələrimiz arasında idman və ümumilikdə dostluq əlaqələrinin inkişafında xüsusi rolu var. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Azərbaycan və Rusiya arasında idman sahəsində əlaqələrin möhkəmləndirilməsində xidmətlərinə görə İrina Viner-Usmanova “Dostluq” ordeni ilə təltif edilib. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva və Ümumrusiya Bədii Gimnastika Federasiyasının prezidenti İrina Viner-Usmanova çay masası arxasında söhbət etdilər.

Birinci vitse-prezident Mehriban Əliyeva İrina Viner-Usmanovaya gələcək fəaliyyətində yeniyeni uğurlar arzuladı. Sonda Birinci vitse-prezident Mehriban Əliyevaya xatirə hədiyyəsi təqdim olundu.

# Birinci vitse-prezident Mehriban Əliyeva Moskvada naməlum əsgərin məzarını ziyarət edib

***Rusiya Federasiyasında rəsmi səfərdə olan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva noyabrın 21-də Moskva şəhərindəki Aleksandr bağında naməlum əsgərin məzarını ziyarət edib.***

***AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Birinci vitse-prezident Mehriban Əliyeva Rusiya paytaxtında Kremlin divarı yanındakı Aleksandr bağına gəldi.***

Moskva şəhərinin hərbi komendantı Yevgeni Seleznyov Azərbaycanın Birinci vitse-prezidentinə raport verdi. Birinci vitse-prezident Mehriban Əliyeva Naməlum Əsgərin məzarını ziyarət edərək əbədi məşəl önünə əklil qoydu. Azərbaycanın dövlət himni səsləndirildi. Sonra fəxri qarovul dəstəsinin keçidi oldu.





# “Yeni Azərbaycan Partiyası Azərbaycanın ən güclü və əzəmətli siyasi təşkilatı kimi özünü təsdiq edib”

## *Yeni Azərbaycan Partiyasının yaradılmasının 27-ci ildönümünə həsr olunan təntənəli toplantı keçirilib*

***Noyabrın 21-də Yeni Azərbaycan Partiyasının (YAP) yaradılmasının 27-ci ildönümünə həsr olunan təntənəli toplantı keçirilib.***

AZƏRTAC xəbər verir ki, YAP İcra Katibliyində keçirilən tədbirdə çıxış edən Baş Nazirin müavini, Yeni Azərbaycan Partiyası sədrinin müavini-icra katibi Əli Əhmədov partiyanın keçdiyi şərəfli yoldan danışıb. O bildirib ki, Yeni Azərbaycan Partiyasının yaradılması 1990-cı illərin əvvəlindəki gərgin ictimai-siyasi şəraitdən qaynaqlanır. Həmin dövrdə baş verən məlum hadisələr ölkəni dərin böhranlı vəziyyətə gətirib çıxarmışdı. O zamankı hakimiyyətin yarıtmaz fəaliyyəti ölkə-



yenicə qovuşmuş Azərbaycanda milli mənafe və dövlətçilik maraqlarının təmsilçisi olmaq kimi müqəddəs amalı özünün siyasi idealı, əsas strateji xətti seçən bu partiyanın qısa müddətdə cəmiyyətdə həlledici çoxluq tərəfindən ölkəni idarə etməyə qadir alternativsiz qüvvə kimi qəbul olunması da məhz ulu öndər Heydər Əliyevin fenomenal liderlik və idarəçilik keyfiyyətləri ilə şərtlənirdi.

Qeyd edilib ki, Ümummilli Liderin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrdə dönüş yarandı. Müstəqilliyin ilk illərində baş vermiş iqtisadi tənəzzülün, vətəndaş müharibəsinin, Ermənistanın Azərbayca-





dəki vəziyyəti daha da gərginləşdirirdi. Həmin dövrdə bütün diqqət ulu öndər Heydər Əliyevə yönəlmişdi. Sevindirici haldır ki, tarix Ümummilli Liderə və onun yaratdığı partiyaya etimadı təsdiq etdi. Qısa zamanda ölkədə siyasi sabitlik təmin edildi, atəşkəsə nail olundu, insanların sosial rifahının yüksəlməsi istiqamətində mühüm addımlar atıldı. Partiya yarandıqdan az sonra iqtidara gəldi və bugünkü möhtəşəm uğurlarımız üçün münbit şərait yarandı.

YAP sədrinin müavini qeyd edib ki, bu gün Azərbaycan dünyada öz yeri, nüfuzu olan dövlət kimi tanınır. Azərbaycan hazırda dünyada ən sabit və təhlükəsiz ölkələrdəndir. 1990-cı illərin əvvəlində dağılmaq təhlükəsi ilə üz-üzə olan Azərbaycan indi dünyanın ən uğurlu gənc dövlətlərindən biri kimi qəbul olunur.

YAP-ın sıralarında 750 min nəfərə qədər üzvün birləşdiyini deyən Əli Əhmədov söyləyib ki, Azərbaycanın tarixində heç zaman bir partiyanın tərkibində bu sayda üzv olmayıb. Lakin partiyamız təkcə bu sayla fəxr etmir. Eyni zamanda, partiya üzvləri ölkəmizin inkişafına töhfə vermək əzmindədirlər. Bu isə ulu öndər Heydər Əliyevin ideyalarına olan inamdan irəli gəlir. Ötən dövr ərzində partiyamız Azərbaycan xalqına ləyaqətlə, şərəflə xidmət edib. İqtidarda olduğu 26 il ərzində YAP-ın və onun liderinin ölkəmizə rəhbərlik etməsi Azərbaycan tarixinin ən parlaq səhifələrini təşkil edir. Bu illər ərzində Azərbaycan qarşısında duran bütün əzəmətli vəzifələri yerinə yetirib. Ölkəmiz simasını kökündən dəyişib, Azərbaycan dünyada, o cümlədən regionda mövqeyini əhəmiyyətli dərəcədə möhkəmləndirib, beynəlxalq miqyasda nüfuzu artıb. Bu gün dünyada Azərbaycan hörmətlə adı çəkilən ölkələr sırasındadır. Bu nailiyyətlərin əldə edilməsi bilavasitə YAP-ın liderinin müəyyənləşdirdiyi siyasətin nəticəsidir.

Baş Nazirin müavini bildirib ki, Heydər Əliyev siyasətinin Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən layiqincə davam etdirilməsi YAP-ın sonrakı inkişafını şərtləndirən əsas amil olub. YAP-ın əldə etdiyi qələbələr Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətlə və bu siyasətə vətəndaşlarımızın münasibətinin yüksək olması ilə bilavasitə əlaqədardır.

Vurğulanıb ki, Yeni Azərbaycan Partiyası Azərbaycanın ən güclü və əzəmətli siyasi təşkilatı kimi özünü təsdiq edib. YAP sıralarında bu qədər insanın birləşməsi və onun siyasətində yaxından iştirak etməsi vətəndaşlarımızın mütləq əksəriyyətinin Heydər Əliyev ideyalarına dərin inamı, eyni zamanda, Prezident İlham Əliyevin siyasətinə inamın ifadəsidir. Əgər vətəndaşların qəlbindən gələn bu istək olmasaydı, bu gün YAP sıralarında 750 min nəfərin cəmləşməsi mümkün olmazdı.

Əli Əhmədov deyib: “Bu yaxınlarda keçirilən rəy sorğuları da təsdiqləyir ki, ölkə əhalisi Prezident İlham Əliyevin həyata keçirdiyi siyasəti dəstəkləyir. YAP bundan sonra da uzun illər Azərbaycan xalqına xidmət edəcək. Uzun illər Azərbaycan vətəndaşları YAP iqtidarının faydasını görəcək və onun siyasətinə xidmət edəcək. Azərbaycan vətəndaşları ötən illərin təcrübəsi əsasında qəti əmin olublar ki, YAP-ın mövcudluğu, onun liderinin Azərbaycana rəhbərlik etməsi əmin-amanlıq, sabitlik, inkişaf, tərəqqi, insanların rifahının yüksəlməsi, milli maraqların qorunması, ölkəmizin beynəlxalq müstəvidə nüfuzunun artması, müasirləşməsi, yeniləşməsi deməkdir. YAP-ın tarixi keçmişi nə qədər əzəmətli və möhtəşəmdirsə, gələcəyinin daha da parlaq olacağına əminliklə inanırıq. YAP-ın sıralarında birləşən əzəmətli siyasi güc bu inamı reallığa çevirəcək”.

Tədbirdə çıxış edən Dövlət Statistika Komitəsinin sədri, YAP Siyasi Şurasının üzvü Tahir Budaqov YAP-ın yaranması dövründə ölkəmizdə mövcud olmuş gərgin ictimai-siyasi vəziyyət barədə fikirlərini bildirib. O deyib ki, müstəqilliyin ilk illərində milli dövlətçilik mənafelərinə xidmət edən iqtidarın yoxluğu, hakimiyyətin bir qrup savadsız, səriştəsiz, bəzən isə xəyanətkar şəxslərin əlinə keçməsi ölkədə idarəolunmaz bir vəziyyətin yaranmasına, daxili qarşıdurmaların geniş vüsət almasına gətirib çıxarmışdı. Belə bir zamanda ölkənin taleyinə biganə olmayan ziyalılar, sadə insanlar Naxçıvana üz tutaraq Heydər Əliyevlə görüşlər keçirir, xalqı üzləşdiyi fəlakətlərdən, çətinliklərdən çıxarması üçün ondan kömək istəyirdilər. Ağır vəziyyətə dözməyən insanlar qondarma yaş senzinin ləğvi üçün respublikanın müxtəlif bölgələrində mitinqlər təşkil edir, dahi dövlət xadiminin yenidən böyük siyasətə qayıdışını tələb edirdilər. Nəhayət, respublikanın mütərəqqi fikirli ziyalıları 1992-ci ilin iyun ayında yeni siyasi mübarizə yolu seçərək Ümummilli Liderimizin rəhbərliyi ilə yeni partiya yaratmaq qərarına gəldilər. Həmin ziyalılar oktyabr ayında Yeni Azərbaycan Partiyasının yaradılması xahişi ilə ulu öndər Heydər Əliyevə müraciət etdilər. Müraciəti imzalayanlar yaxşı bilirdilər ki, yeni müstəqillik qazanmış ölkəni düşdüyü ağır və dözülməz vəziyyətdən çıxarmağa qadir yeganə şəxsiyyət məhz Heydər Əliyevdir. Azərbaycan xalqının istəyinə heç zaman biganə qalmayan, özünün qurub-yaratdığı respublikanın dağılmasına dözməyən Heydər Əliyev Vətənin dar günündə xalqın səsinə səs verdi. Beləliklə, 1992-ci il noyabrın 21-də müstəqil Azərbaycanın çağdaş dövlətçilik tarixində yeni səhifə açan əlamətdar hadisə baş verdi. Naxçıvanda 550-yə yaxın nümayəndənin iştirakı ilə Partiyanın təsis qurultayı keçirildi, Ulu Öndər yekdilliklə təşkilata sədr seçildi. Müstəqilliyə

na qarşı işğalçılıq siyasətinin qarşısının alınması, dövlətçilik ənənələrinin və sabitliyin bərpası məqsədilə Heydər Əliyevin atdığı qətiyyətli addımlar qısa müddət ərzində hər bir vətəndaşın həyatında hiss olunmağa başladı.

Vurğulanıb ki, istənilən siyasi partiyanın mövcudluğu, ilk növbədə, onun ideyalarının ictimai dəyəri ilə müəyyən olunur. Yeni Azərbaycan Partiyasının həyata keçirdiyi missiyanın əhəmiyyəti bu gün partiyanın sıralarında birləşən çoxsaylı üzvlərin sayında öz təsdiqini tapır. Eləcə də partiyamızın sədri cənab İlham Əliyevin həyata keçirdiyi daxili və xarici siyasət kursuna bütövlükdə xalqın etimadı bu partiyanın nüfuzunun yüksək olmasını şərtləndirir. Bu inam məhz Prezident İlham Əliyevin milli maraqlara əsaslanan fəaliyyəti üzərində köklənib. Bütün bu uğurların əldə olunmasında Azərbaycan Respublikasının Birinci Vitse-Prezidenti, Yeni Azərbaycan Partiyasının sədr müavini Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyətinin də xüsusi payı var.

YAP Siyasi Şurasının üzvü, Milli Məclisin deputatı Məlahət İbrahimqızı çıxışında partiyanın keçdiyi şərəfli yoldan danışıb, Azərbaycanın ötən illər ərzində güclü dövlətə çevrildiyini bildirib. M.İbrahimqızı bu gün Azərbaycanı istəməyən bəzi dairələrin ölkəmizin əleyhinə kampaniya apardıqlarını deyərək partiya üzvlərini həmin dairələrə qarşı daha güclü mübarizə aparmağa səsləyib.

Toplantıda, həmçinin, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının tələbəsi Aytəkin Hacıyeva, YAP Xəzər rayon təşkilatının Gənclər Birliyinin sədri Sadiq Əliyev və Bakı Slavyan Universitetinin tələbəsi, YAP-ın təqaüdçüsü Səbinə Nəsibli çıxış edərək Yeni Azərbaycan Partiyasının xalqımızın və dövlətimizin qarşısındakı xidmətlərdən danışıblar.

# Əli Həsənov: “Qanunsuz miqrasiya cinayətinə əli bulaşan insanlar layiqli cəzalarını alacaqlar”

*Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, tarix elmləri doktoru, professor Əli Həsənovun Trend-ə müsahibəsi*



***- Əli müəllim, bu günlərdə Almaniyada “miqrant alveri”nə görə bir qrup azərbaycanlının həbs edilməsi böyük rezonans yaratdı. Məlum oldu ki, bəzi müxalifət təmsilçiləri saxta sənədlərlə bir sıra şəxslərin Avropaya yerləşməsinə yardımçı olublar. Bu barədə fikirlərinizi öyrənmək istərdik.***

- Miqrasiya məsələləri, bir ölkədən başqa ölkəyə köç etmə, mövsümi və ya daimi yaşayış yerini dəyişmə, ayrı-ayrı səbəblərdən bir ölkədən başqa ölkəyə müvəqqəti və ya daimi keçid, normal prosesdir. Müstəqillik dövründə Azərbaycandan xarici ölkələrə köç edənlər, mövsümi və daimi yaşayış yerini dəyişənlər, o cümlədən Azərbaycana xarici ölkələrdən gələnlər, öz daimi yaşayış yerini Azərbaycan seçənlər də var. Bu, təbii prosesdir, normaldır, qloballaşma dövründə, qlobal dünyada bu prosesləri prinsipcə həm dövlətlər, həm də transmilli şirkətlər təqdir edirlər. İnsanların bu istəyini reallaşdırmaq məqsədilə bəzən hüquqi yardım, bəzən bu və ya digər məsələdə ona kömək göstərmək, yol göstərmək üçün müvafiq qurumlara müraciəti də təbiidir. Çünki xarici ölkələrin hər birinin özünün milli qanunvericiliyi var, Avropa Birliyi ölkələrində Avropa şengen viza normaları var, oraya getmək, yerləşmək və qalmağın müddətli planları mövcuddur. Ona görə də insanlar əgər köçməklə bağlı müraciət edənlərə qanunlar çərçivəsində yardım göstərirlərsə, bu, təbiidir. Yox əgər onlar qanunun icazə vermədiyi vasitələrlə, o cümlədən bu insanların həyatı, fəaliyyəti, onların yaşadığı ölkədəki vəziyyəti ilə bağlı sənədləri saxtalaşdıraraq bu işə yardım göstərirlərsə, bunun adı həm Azərbaycanda, həm də xarici ölkələrdə cinayətdir. Ona görə də son zamanlar Azərbaycandan gedən, Avropada yerləşən insanların indi geriyə qayıtma prosesi başlayıb və bu prosesi Azərbaycan dövləti deyil, Avropa dövlətləri başladıb.

***- Bəs, Almaniyadan deport edilən azərbaycanlıların taleyi necə olacaq, onlarla bağlı hansı tədbirlər görüləcək?***

- Avropa dövlətləri artıq miqrant məsələlərində müəyyən nizam-intizam yaratmağa başlayıb və bu insanlar geri qaytarılır. Biz dövlət olaraq hər bir vətəndaşımız üçün cavabdehik, hər bir vətəndaşımızın geri qayıdışında, yerləşməsində müvafiq olaraq Azərbaycan cəmiyyətində özünün həyatını qurmasında lazımi yardımı göstərəcəyik. Hər bir dövlətin vəzifəsi öz vətəndaşına iş üçün, həyat üçün şərait yaratmaqdır. Və geri qayıdanların hər birinin fəaliyyəti müvafiq orqanlar tərəfindən araşdırılır, nə zaman gediblər, niyə gediblər, onların getməsində hansı səbəblər olub, kimlər yardım göstərib, onlara qanuni və ya qeyri-qanuni yolla yardım göstərilib?! Burada həmin o mühacir ticarətini quran işbazlar, o cümlədən bu işdə əlini qızdıran bəzi siyasi partiyalar və siyasətçilər üzə çıxacaq. Bəlli olacaq ki, bu insanlara kimlər və hansı adla, niyə yardım göstərib və bunun müqabilində hansı vəsaiti qazanıblar, əldə etdikləri qazanc qanunidir, yoxsa qeyri-qanuni, vergiyə cəlb olunub, yoxsa olunmayıb. Və yaxud da qanunlara əməl ediblər, yoxsa pozublar. Düşünürük ki, bütün bu məsələlər aydınlaşacaq. Amma dediyim kimi, bu prosesi Azərbaycan dövləti başlamayıb, bunu Avropa dövlətləri başlayıb. Bizim də vətəndaşlar Avropadan qayıdan həmin vətəndaşlar sırasında olduğuna görə biz də bu məsələdə tərəf olaraq iştirak edirik və edəcəyik.

***- Bu hadisələr sözsüz ki, Azərbaycanın imicinə zərər vurur. Bu prosesdə iştirak edən dələduzlara qarşı hansı müvafiq tədbirlərin görülməsi gözlənilir?***

- Azərbaycanın miqrasiya orqanı gələn vətəndaşların hər birini qarşılayır, onlarla bağlı müvafiq araşdırmalar aparır. Düşünürəm ki qarşıdan gələn müddətdə biz bu prosesi təşkil edənləri aydınlaşdıracağıq. Bu prosesi Azərbaycanın imicinə zərbə vuraraq həyata keçirənlər, sanki Azərbaycanda söz, mətbuat azadlığı yoxdur adı ilə bir qrup yaradıcı insanları, Azərbaycanda fəaliyyət azadlığı yoxdur adı ilə bir qrup siyasiləşmiş insanları ölkədən çıxarıblar. Azərbaycanda mülkiyyət və əmək hüquqları tapdalanır adı ilə müəyyən iş adamlarını ölkədən çıxarıblar və başqa-başqa adlarla milli mənsubiyyətini dəyişərək azərbaycanlının üstünə erməni adı qoyub, sonra da belə adlandırıblar ki, guya Azərbaycanda başqa millətin, başqa dinlərə mənsub olan insanların yaşamağa haqqı yoxdur, guya burada diskriminasiyaya məruz qalırlar. Yəni bunların hamısı bildiyiniz kimi qanun pozuntusudur, cinayətdir və bunlar araşdırılaraq müvafiq tədbir görüləcək. Cinayət törətmiş qrup və ya insanlara gəlincə, onlarla bağlı hüquq-mühafizə orqanları araşdırma aparır. Nəinki bizim, o cümlədən, Almaniya, Fransanın da hüquq-mühafizə orqanları araşdırma aparır. Bu işdə cinayətə əli bulaşan insanlar da layiqli cəzalarını alacaqlar.

Amma Azərbaycan dövləti hər bir qayıdan vətəndaşına sahib çıxacaq, Azərbaycanda yaşamaq istəyən vətəndaşlarımıza münbit şərait yaradılacaq. Azərbaycan qanunlarını pozmaq istəyən, Azərbaycan qanunlarına, dövlətinə, dövlətçiliyinə qarşı fəaliyyət göstərən insanlar da qanun çərçivəsində qiymətini alacaqlar.

# “YAP Heydər Əliyevin hakimiyyətə gəlməsinin hüquqi bir forması idi”




“Yeni Azərbaycan Partiyası 26 ildən çoxdur ki, şərəflə, ləyaqətlə Azərbaycan xalqına xidmət edir”. SİA-nın verdiyi məlumata görə, bunu Baş Nazirin müavini, Yeni Azərbaycan Partiyasının (YAP) Sədr müavini - İcra katibi Əli Əhmədov jurnalistlərə açıqlamasında deyib.

O bildirib ki, YAP-ın yaranması və fəaliyyəti kifayət qədər uğurlu olub: “O zamanki səriştəsiz hakimiyyət Azərbaycanı parçalanmaq təhlükəsi ilə üz-üzə qoymuşdu. İnsanlar birmənalı anlayırdılar ki, Azərbaycanın düşdüyü bu vəziyyətdən yeganə çıxış yolu Heydər Əliyevin hakimiyyətə gəlməsi idi. Yeni Azərbaycan Partiyası Heydər Əliyevin hakimiyyətə gəlməsinin hüquqi bir forması idi. Əgər YAP yaranmasaydı, Heydər Əliyev hakimiyyətə gəlməsəydi, Azərbaycan xalqı fərqli bir taleyi yaşamaq məcburiyyətində qalardı. Heydər Əliyev Azərbaycanı bu bəlalardan, təlatümlərdən qurtardı. Qısa zaman ərzində ölkədə tüğyan edən xaosun qarşısı alındı, iqtisadi tənəzzülün qarşısı alındı, separatizmin qarşısı alındı və Azərbaycan bugünkü inkişafa gəlmək üçün əlverişli bir imkana malik oldu.

Bu gün Yeni Azərbaycan Partiyasının yaranmasının 27 ili tamam olur. Partiya yarandıqdan təxminən 6 ay sonra onun lideri Heydər Əliyev Azərbaycanın Prezidenti seçilib. Beləliklə də YAP Azərbaycanın iqtidar partiyasına çevrildi. Azərbaycanın müasir dünyanın ən uğurlu və sürətlə inkişaf edən dövlətinə çevrilməsinə böyük töhfələr verib. Bu illər ərzində YAP-ın özü də kifayət qədər qüdrətlənib, sıraları genişlənib. İndi YAP ümumxalq partiyası statusunu ləyaqətlə daşımaqdadır. Onun sıralarında 750 minə qədər Azərbaycan vətəndaşı var. İnanıram ki, YAP iqtidarının ömrü Azərbaycanın siyasi həyatında kifayət qədər uzun olacaq”.

# “Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi: tarixi kökləri, mərhələləri və həlli perspektivləri” proqramı üzrə kurslar başa çatıb

***Noyabrın 21-də Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası və “Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması” İctimai Birliyinin birgə təsis etdikləri Qarabağ Araşdırmalar Mərkəzində İctimai Birliyin könüllüləri üçün “Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi: tarixi kökləri, mərhələləri və həlli perspektivləri” proqramı üzrə qısamüddətli elmi maarifləndirmə və təbliğat kursları başa çatıb. Kursların dinləyiciləri Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının beynəlxalq münasibətlər ixtisasının tələbələri olublar.***




AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında fəaliyyət göstərən Qarabağ Araşdırmalar Mərkəzində oktyabrın 31-dən keçirilən kursların sonuncu günündə Prezident yanında Dövlət İdarəçilik Akademiyasının professoru, “Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması” İctimai Birliyinin sədr müavini Elçin Əhmədovun “XX əsrin 80-ci illərinin sonunda Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və hərbi təcavüzünün nəticələri (1988-1993)” mövzusunda mühazirəsi dinlənilib.

Kurslara yekun vuran Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, tarix elmləri doktoru, professor Əli Həsənov “Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizama salınması istiqamətində Azərbaycanın dövlət siyasəti” mövzusunda məruzə ilə çıxış edib.

Əli Həsənov ermənilərin 200 ildən çox bir dövrdə azərbaycanlılara qarşı həyata keçirdiyi etnik təmizləmə, soyqırımı siyasətinin əsas məqsədləri, o cümlədən bu hadisələrin öyrənilməsi, dünya ictimaiyyətinə çatdırılması kimi məsələlərdən bəhs edib. Prezidentin köməkçisi bildirib ki, tariximizə nəzər salsaq Rusiya-İran, Rusiya-Türkiyə müharibələri fonunda ermənilərin Azərbaycan torpaqlarına, o cümlədən Qarabağa, Naxçıvana, Zəngəzura köçürülməsi, onların məskunlaşandan sonra Azərbaycan torpaqlarına göz dikməsi, bu ərazilərdə Ermənistan dövlətini yaratmaq siyasəti, bütün bunların zaman-zaman qanlı səhifələrə rəvac verən hadisələrlə müşayiət edilməsi kimi həqiqətlərin şahidi oluruq. Bunların sırasında 1918-ci il 31 mart - Azərbaycanlıların soyqırımı, həmçinin 1948-1953-cü illərdə azərbaycanlıların kütləvi şəkildə Ermənistandan köçürülməsi, Xocalı soyqırımı və digər erməni vandalizm aktlarını qeyd etmək olar.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövcud vəziyyət barədə danışan Əli Həsənov deyib ki, bu məsələ ilə əlaqədar Azərbaycanın haqq səsi, ədalətli mövqeyi artıq dünya ictimaiyyətinə çatdırılıb. Azərbaycan Prezidenti İlham Əliyev başda olmaqla dövlətimiz ötən müddətdə, xüsusən son 15 ildə Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli ilə bağlı bütün beynəlxalq təşkilatlarda öz sözünü deyib, hücum diplomatiyasını həyata keçirib. BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilən dörd qətnamənin hər birində Azərbaycanın işğal olunmuş ərazilərinin qeyd-şərtsiz boşaldılması, Ermənistan qoşunlarının geri çəkilməsi, dinc əhalinin doğma torpaqlarına geri qaytarılması ilə bağlı tələblər irəli sürülür. Bu qətnamələr beynəlxalq hüquqa əsaslanır. Son vaxtlar Qoşulmama Hərəkatı da birmənalı şəkildə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini dəstəkləyir. Digər beynəlxalq təşkilatlar, o cümlədən Avropa Şurası, ATƏT, Avropa Parlamenti, həmçinin tərəfdaşlıq etdiyimiz NATO kimi qurumların əksəriyyəti bu işğal faktını tanıyıblar. Lakin təəssüflər olsun ki, beynəlxalq münasibətlərin indiki durumu və ikili standartlar siyasəti Ermənistana işğal etdiyi Azərbaycan torpaqlarından geri çəkilməsi üçün ciddi şəkildə təzyiq göstərilmir.

Prezidentin köməkçisi diqqətə çatdırıb ki, dövlətimizin başçısı İlham Əliyevin Ermənistan-Azərbaycan münaqişəsinin ədalətli şəkildə həlli istiqamətində apardığı siyasət dünya ictimaiyyətinin Qarabağ həqiqətləri haqqında məlumatlandırılması ilə bağlı keçirilən tədbirlərin coğrafiyasının genişləndirir. Bu baxımdan Heydər Əliyev Fondunun gördüyü işlər də olduqca təqdirəlayiqdir.

Mütəmadi olaraq keçirilən bu kursların əhəmiyyətini qeyd edən Prezidentin köməkçisi vurğulayıb ki, əsas məqsəd ermənilərin 200 ildən çox müddətdə azərbaycanlılara qarşı həyata keçirdiyi etnik təmizləmə, soyqırımı və təcavüzkarlıq siyasətini gənclərə bütün təfərrüatları ilə çatdırmaqdır. Bundan əlavə, bu kursların keçirilməsi gənclərin maarifləndirilməsi və onlarda vətənpərvərlik ruhunun artmasına kömək olmaqla yanaşı, eləcə də Qarabağ həqiqətləri haqqında dünya ictimaiyyətinin daha çox məlumatlandırılması istiqamətində Azərbaycan dövlətinin apardığı mühüm işlərə töhfə verməkdir.

Sonra dinləyicilərə sertifikatlar təqdim olunub.

# YAP xalqa söykənən nüfuzlu siyasi partiyadır

*Yeni Azərbaycan Partiyasının yaradılmasının 27-ci ildönümü münasibətilə bölgələrdə tədbirlər keçirilib*

## Ağcabədi

Yeni Azərbaycan Partiyasının yaradılmasının 27-ci ildönümü münasibətilə YAP Ağcabədi rayon təşkilatının inzibati binasında tədbir keçirilib. Tədbir iştirakçıları öncə, Ulu Öndər Heydər Əliyevin abidəsi önünə tər çiçək dəstələri düzərək, Onun əziz xatirəsini ehtiramla yad ediblər. Tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.






Tədbiri YAP Ağcabədi rayon təşkilatının sədri Rövşən Əhmədov açaraq, partiyanın yaranması, inkişafı və fəaliyyəti barədə məruzə ilə çıxış edib. Bildirib ki, hazırda Yeni Azərbaucan Partiyası Azərbaycanın ən böyük siyasi təşkilatı olmaqla bərabər, bu gün təkcə Azərbaycanda deyil, ölkəmizin hüdudlarından kənarda da qəbul olunan nüfuzlu siyasi partiyadır: “Bu siyasi təşkilatın beynəlxalq aləmdə nüfuzlu siyasi partiyalar tərəfindən qəbul edilməsinin səbəbi də onun xalqına söykənməsi, xalqdan qidalanmasıdır. Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri Cənab İlham Əliyevin rəhbərliyi ilə YAP bundan sonra da Azərbaycan xalqı qarşısında xidmətini davam etdirərək, həmişə Azərbaycan xalqının partiyası olaraq qalacaqdır”.

Rayon təşkilatının sədri bildirib ki, 1980-ci illərin sonu, 1990-cı illərin əvvəli ölkəmiz üçün ağır və içtimai-siyasi çətinliklərlə dolu olan vaxt idi. Həmin vaxtlar respublikanın düşdüyü ağır vəziyyətdən çıxarmağa qadir olan bir siyasi partiyaya ehtiyac yaranmışdı: “Beləliklə, 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində 550 nəfər partiya təəssübkeşinin iştirakı ilə Yeni Azərbaycan Partiyasının Təsis Konfransı keçirildi, Partiyanın Nizamnaməsi və Proqramı qəbul edildi. Ulu Öndər Heydər Əliyev Konfrans nümayəndələri tərəfindən açıq səsvermə yolu ilə Yeni Azərbaycan Partiyasının Sədri seçildi”.

Məruzə ətrafında YAP Ağcabədi rayon təşkilatı qadınlar şurasının sədri Radə Qafarova, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ağcabədi filialının direktoru, iqtisad üzrə fəlsəfə doktoru, dosent Mobil Məcidov, “Aran” qəzetinin redaktoru Şirxan Hüseynov, Ağcabədi şəhər 6 saylı ərazi ilk təşkilatın sədri Əli Bədəlov çıxış edərək tədbir iştirakçılarını təbrik edib, YAP-ın keçdiyi tarixi yol, Ulu Öndər Heydər Əliyevin ölkə və vətən qarşısında xidmətləri barədə öz mülahizələrini bölüşüblər.

Tədbirdə YAP sıralarına daxil olan bir qrup gəncə pratiyanın üzvlük vəsiqələri təqdim edilib. Partiya işində və rayonun ictimai-siyasi həyatında fərqlənən YAP fəallarına Fəxri Fərmanlar təqdim edilib.

## Zaqatala

Dünən Yeni Azərbaycan Partiyasının yaranmasının 27-ci ildönümü ilə bağlı Zaqatala rayon Heydər Əliyev Mərkəzində tədbir keçirilib. Tədbir iştirakçıları, ilk öncə, Ulu Öndər Heydər Əliyev Mərkəzində ucaldılmış abidə önünə gül dəs-





təsləri düzərək, Onun xatirəsini ehtiramla yad ediblər. Tədbir Yeni Azərbaycan Partiyasının 27 illik tarixindən bəhs edən videoçarxın nümayiş etdirilməsi ilə başlanıb.

Tədbiri giriş nitqi ilə açan YAP Zaqatala rayon təşkilatının sədri Habil Qurbanov qonaqları salamlayaraq, partiyanın yaradılmasının ildönümü ilə əlaqədar keçirilən tədbirdə birgə iştirakdan məmnunluğunu bildirib. Rayon təşkilatının sədri tarixi, siyasi proseslərə nəzərə salaraq, qeyd edib ki, bu partiya yenicə müstəqilliyinə qovuşmuş bir ölkənin yenidən parçalanmaq təhlükəsi qarşısında qaldığı bir zamanda ölkənin mütərəqqi fikirli insanlarının, ziyalılarının təşəbbüsü, Ulu Öndər Heydər Əliyevin müdrikliyi sayəsində yaradılıb.

YAP Zaqatala rayon təşkilatının qadınlar şurasının sədri Vəfa Süleymanova çıxışında qeyd edib ki, Azərbaycan bu gün tamamilə müstəqil siyasət yürüdən, öz sözü, mövqeyi, prinsipial xarici siyasəti olan dövlətdir.

Daha sonra çıxış edən Zaqatala rayon Heydər Əliyev Mərkəzinin direktoru Famil Rəhimov partiyanın gənclər siyasətindən bəhs edərək, mərkəzlə partiyanın rayon təşkilatının birgə fəaliyyəti haqqında məlumat verib. YAP Zaqatala rayon təşkilatı idarə heyətinin üzvü Tahir Məmmədov çıxışında partiyanın siyasi xətti haqqında öz fikirlərini bölüşüb.

Tədbirdə rayon icra hakimiyyətinin başçısı Mübariz Əhmədzadə çıxış edərək Ümummilli Lider Heydər Əliyev ideyalarının uğurla davam etdirilməsi ilə ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın mühüm uğurlar qazandığını diqqətə çatdırıb.

Sonda partiyaya yeni üzv olmuş gənclərə üzvlük vəsiqələri təqdim olunub.

## Binəqədi

Yeni Azərbaycan Partiyasının yaradılmasının 27-ci ildönümü münasibətilə YAP Binəqədi rayon təşkilatı, Binəqədi rayon icra hakimiyyəti, Binəqədi rayonu, Mir Cəlal 1 D ünvanlı (“Xaliq Faiqoğlu” şirkəti) ərazi ilk partiya təşkilatının birgə təşkilatçılığı ilə tədbir keçirilib.

Tədbir Yeni Azərbaycan Partiyasının 27 illik tarixindən və Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının layihələrindən bəhs edən videoçarxın nümayiş etdirilməsi ilə başlanıb.

Tədbiri giriş sözü ilə açan YAP Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov tarixi və siyasi proseslərə nəzərə salaraq qeyd edib ki, bu partiya yenicə müstəqilliyinə qovuşmuş bir ölkənin yenidən parçalanmaq təhlükəsi qarşısında qaldığı bir zamanda, ölkənin mütərəqqi fikirli insanlarının, ziyalılarının təşəbbüsü, Ulu Öndərin müdrikliyi sayəsində yaradılıb: “Çox qısa müddətdən - cəmi 7 aydan sonra hakimiyyətə gəldi və gəlişi ilə Azərbaycan tarixində yeni bir inkişaf dövrünün başlanğıcını qoydu. Bu gün də Ümummilli Lider Heydər Əliyevin idelayaları, siyasi kursu ölkəmizdə uğurla davam etdirilir və ölkəmizin bugünkü inkişafına şərait, gələcək inkişafına əsaslı zəmin yaradır”. Rayon təşkilatının sədri, həmçinin, dövlət başçısı, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə son illər ölkəmizdə həyata keçirilən irimiqyaslı iqtisadi və sosial layihələrdən danışıb.

Milli Məclisin komitə sədri, Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü Eldar İbrahimov çıxışında vurğulayıb ki, bu gün YAP-ın yaradılmasının 27 illiyi münasibətilə təşkil edilmiş təntənəli mərasimdə Ulu Öndər Heydər Əliyevin “Yeni Azərbaycan Partiyası dünənin, bu günün və sabahın partiyasıdır. Yeni Azərbaycan Partiyası 21-ci əsrin partiyasıdır, III minilliyin partiyasıdır!” ifadəsini qürurla və fəxarətlə səsləndiririk. Ulu Öndər Heydər Əliyevin siyasi xəttini uğurla və ardıcıl surətdə davam etdirən dövlət başçısı, Yeni






Azərbaycan Partiyasının Sədri Cənab İlham Əliyevin qeyd etdiyi kimi, “Yeni Azərbaycan Partiyası Azərbaycanın aparıcı siyasi qüvvəsidir.

YAP Binəqədi rayon təşkilatının Binəqədi rayonu, Mir Cəlal 1 D ünvanlı (“Xaliq Faiqoğlu” şirkəti) ərazi ilk partiya təşkilatının sədri Faiq Seyidov çıxışında bildirib ki, Yeni Azərbaycan Partiyası ümumxalq partiyasıdır və bu gün 27 illik uğurlu siyasi fəaliyyətimizin qələbəsini təntənə ilə qeyd edirik.

Tədbirdə çıxış edən Binəqədi rayon icra hakimiyyətinin başçısı Elxan Allahverdiyev bu əlamətdar hadisə münasibətilə xalqımızı və bütün partiya fəallarını təbrik edib. Qeyd edib ki, bu gün sürətli inkişaf edən müstəqil Azərbaycanımızı uğurlu inkişafa aparan bu yolda hər bir Azərbaycan vətəndaşı Yeni Azərbaycan Partiyasının Sədri Prezident İlham Əliyevin siyasi kursunu dəstəkləyir və böyük əzmlə dövlətin, xalqın və vətənin mənafeyi naminə səy göstərir. Öz əməlində Ümummilli Liderimiz Heydər Əliyev prinsiplərini yaşadan Yeni Azərbaycan Partiyasının seçdiyi əsas hədəflərqüdrətli və zəngin Azərbaycan, ərazi bütövlüyü, siyasi sabitlik, güclü iqtisadiyyat, davamlı inkişaf, ədalətli cəmiyyət və layiqli həyatdır.

Tədbirin rəsmi hissəsi başa çatdıqda sonra partiyanın və rayon təşkilatının ictimai-siyasi həyatında fəal iştirakına görə, bir qrup şəxs Fəxri Fərmanla təltif edilib. YAP sıralarına qəbul edilmiş şəxslərə üzvlük vəsiqələri təqdim edilib.

Tədbir bədii hissə ilə davam etdirilib.

## BSU

Dünən Bakı Slavyan Universitetində Yeni Azərbaycan Partiyasının yaradılmasının 27-ci ildönümünə həsr olunmuş tədbir keçirilib. Tədbir iştirakçıları, öncə, Ulu Öndər Heydər Əliyevin BSU-nun foyesində yerləşən büstü önünə əklil qoyublar. Tədbirin əvvəlində Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Ardı Səh. 11

# YAP xalqa söykənən nüfuzlu siyasi partiyadır

*Yeni Azərbaycan Partiyasının yaradılmasının 27-ci ildönümü münasibətilə bölgələrdə tədbirlər keçirilib*

Əvvəli Səh. 10

Tədbiri giriş sözü ilə açan BSU-nun rektoru, professor Nurlana Əliyeva bildirib ki, 21 noyabr xalqımızın həyatında böyük tarixi və ictimai-siyasi əhəmiyyət kəsb edən əlamətdar bir gündür: "YAP-ın yaranması tarixi zərurət idi. Azərbaycanın ötən əsrin 80-ci illərinin sonlarında, 90-cı illərinin əvvəllərində düşdüyü mürəkkəb, böhranlı və faciəli vəziyyətə dözə bilməyən 91 nəfər vətənpərvər ziyalı 1992-ci il oktyabr ayının 16-da "Səs" qəzeti vasitəsilə Ulu Öndər Heydər Əliyevə müraciət edərək, ölkəmizi bu böhranlı vəziyyətdən çıxarmağı xahiş etdilər. Ulu Öndər Heydər Əliyev bu müraciətə 1992-ci il oktyabrın 23-də cavab verdi. Qüdrətli siyasi xadim Heydər Əliyevin bu cavabı, əslində, proqram xarakterli bir sənəd idi. Beləliklə, 1992-ci il noyabr ayının 21-də xalqımızın dahi oğlu, milli təəssübkeşimiz, Ümummilli Liderimiz Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvan şəhərində YAP-ın təsis konfransı keçirildi".





N.Əliyeva bildirib ki, bugünkü sürətli inkişafımızın, böyük uğurlarımızın kökündə, məhz 1992-ci ilin 21 noyabrı dayanır: "Bu gün müdrik siyasi xadim, Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, YAP-ın Sədri İlham Əliyev ölkəmizin, müasir dünyamızın yeni çağırışlarına uyğun şəkildə inkişaf etməsi üçün çoxşaxəli səmərəli fəaliyyət həyata keçirir. Dövlət başçımızın sədaqətli məsləkdaşı, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva respublikamızın hərtərəfli inkişafına və dövlətimizin daha da qüdrətlənməsinə böyük töhfələr verir".

Sonra YAP-ın fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

YAP-ın Nəsimi rayon təşkilatının BSU ərazi ilk partiya təşkilatının sədri, dosent Sevinc Axundova, YAP-ın Nəsimi rayon təşkilatının BSU ərazi ilk partiya təşkilatının gənclər birliyinin sədri Murad Sadıqov və digərləri çıxış edərək, gənclərə ölkənin ictimai-mədəni həyatında fəal iştirak etmək və dövlət idarəçiliyində təmsil olunmaq üçün yaradılan şəraitə görə, ölkə rəhbərliyinə təşəkkür edib və onlara göstərilən etimadı layiqincə doğruldacaqlarını vurğulayıb.

Sonra "Qarabağ Azərbaycandır!" adlı videoçarx nümayiş olunub.

Tədbirin sonunda YAP-a yeni üzv olan tələbə-gənclərə üzvlük vəsiqələri təqdim edilib.

## Göyçay

Dünən Yeni Azərbaycan Partiyasının yaranmasının 27-ci ildönümü ilə bağlı YAP Göyçay rayon təşkilatı tədbir keçirib. Tədbir iştirakçıları əvvəlcə Yeni Azərbaycan Partiyasının qurucusu, Ümummilli Lider Heydər Əliyevin büstü önünə gül dəstələri düzüb və əziz xatirəsini anıblar.

Yeni Azərbaycan Partiyasının yaranması və keçdiyi şərəfli yol haqqında videoçarxın nümayişindən sonra Yeni





Azərbaycan Partiyası Göyçay rayon təşkilatının sədri Sahib Şükürov çıxış edərək, 27 il öncə, məşhur "91-lər"in tarixi müraciətindən sonra soyuq, şaxtalı bir gündə Naxçıvanda Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə yaranan YAP-ın fəaliyyətindən danışıb: "Çox keçmədi ki, partiyanın bütün rayonlarda yerli təşkilatları yaradıldı. O vaxtkı ölkəyə rəhbərlik edənlərin səriştəsizliyi, işinin öhdəsindən gələ bilməmələri, xalqı özlərindən narazı salmaları və ən əsası, Ulu Öndər Heydər Əliyevin idarəetmə qabiliyyətinə bələdçiliyi, xalqına olan böyük sevgisi partiya üzvlərinin sayının artmasına böyük təkan verdi. Tarixə nəzər salsaq, görərik ki, hələ heç bir partiya yarandığı gündən bir neçə ay sonra hakimiyyətə gətirilsin və regionun ən nüfuzlu siyasi təşkilatına çevrilsin. Bu gün Yeni Azərbaycan Partiyasının Sədri, ölkə Prezidenti İlham Əliyev tərəfindən ölkədə aparılan islahatlar, görülən işlər bir qrup qüvvələri narahat edir və "siyasi mühacir" adı ilə Avropada ölkəmiz əleyhinə böhtan və təhqirlər söyləyirlər. Yəqin ki, hər birimiz son günlər ölkədə Almaniyaya qaçmaq üçün düzəldilmiş saxta sənədli "miqrantların" aqibətini izlədiniz. Bax, istər xaricdə, istərsə də daxildə qarışıqlıq yaradanların hamısı eyni xislətlidirlər. Bu gün hər bir azərbaycanlı bu qara qüvvələrə və bu ünsürlərə qarşı aktiv iştirak etməlidir".

Tədbirdə rayon icra hakimiyyətinin başçısı Mehdi Səlimzadə Yeni Azərbaycan Partiyasının yaradılmasının 27-ci ildönümü münasibəti ilə partiyamızın Sədri İlham Əliyev başda olmaqla bütün partiya üzvlərini, Azərbaycan xalqını təbrik edərək, Yeni Azərbaycan Partiyasının yaranma tarixindən geniş söhbət açıb.

M.Səlimzadə, həmçinin, onu da vurğulayıb ki, bu gün ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin həyata keçirdiyi siyasət ölkəmizə böyük nüfuz qazandırmış, Azərbaycan regionun lider dövlətinə çevrilibdir: "Ölkəmizin iqtisadi cəhətdən qüdrətlənməsi əhalinin sosial şəraitinin yaxşılaşmasına səbəb olubdur".

Tədbirdə çıxış edən Yeni Azərbaycan Partiyası Göyçay rayon təşkilatı gənclər birliyinin sədri Tural Əhmədov, YAP Göyçay rayon təşkilatı tərəfindən bələdiyyə seçkilərinə namizədliyi irəli sürülmüş Nuranə Həbullayeva, Göyçay İdarəetmə və Texnologiya Kollecinin müəllimi Ləman Qədirova, partiya veteranı Şaban Osmanov və başqaları Yeni Azərbaycan Partiyasının yaranma tarixindən, Ulu Öndərin müəyyənləşdirdiyi siyasi kursa sadiq qalan dövlət başçısı İlham Əliyevin rəhbərliyi altında partiyanın gələcəyə doğru inamla irəlilədiyini diqqətə çatdırıblar.

Sonda bir qrup fəal gənclərə partiya vəsiqələri təqdim edilib.

## Goranboy

Dünən Goranboy rayonunda Yeni Azərbaycan Partiyasının yaradılmasının 27-ci ildönümü ilə bağlı keçirilən tədbirdə iştirak edənlər əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə tər çiçəklər düzüb, əziz xatirəsini ehtiramla yad ediblər. YAP Goranboy rayon təşkilatının akt zalında keçirilən tədbirdə çıxış edən rayon təşkilatının sədri Elçin İsmayılov müstəqil Azərbaycan dövlətinin qurulmasında və respublikamızın inkişafında əvəzsiz xidmətləri olan Yeni Azərbaycan Partiyasının yaranmasının






27-ci ildönümünün qeyd edildiyini söyləyib: "Yeni Azərbaycan Partiyası tariximizin son dərəcə ağır və keşməkeşli günlərdə, ölkənin ciddi sınaqlara məruz qaldığı bir dövrdə Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında və bu böyük şəxsiyyətin ətrafında birləşən insanların fəal iştirakı ilə yaranan Yeni Azərbaycan Partiyası çox mürəkkəb ictimai-siyasi dövrə təsadüf edirdi"

E.İsmayılov çıxışında qeyd etdi ki, Ulu Öndər Heydər Əliyev ideyaları bu gün Möhtərəm Prezidentimiz, Yeni Azərbaycan Partiyası Sədri İlham Əliyev tərəfindən uğurla davam etdirilir: "Yeni Azərbaycan Partiyası Ümummilli Lider Heydər Əliyevin parlaq ideyalarının daşıyıcısı kimi cəmiyyətdə öz aparıcı rolunu gündən- günə daha da möhkəmləndirməkdədir".

Tədbirdə Heydər Əliyev Mərkəzinin direktoru Xəyyam Quliyev, partiya fəallarından Gündüz Hacıyev, Cəfər Verdiyev və başqaları çıxış edərək, Yeni Azərbaycan Partiyasının 27 illik fəaliyyəti barədə ətraflı danışıblar.

Tədbirin sonunda bir qrup gənclərə YAP vəsiqələri təqdim edilib.

## Biləsuvar

Dünən YAP Biləsuvar rayon təşkilatında Yeni Azərbaycan Partiyasının  yaranmasının 27-ci ildönümü münasibətilə tədbir keçirilib. Tədbir iştirakçıları əvvəlcə rayonun mərkəzində ucaldılan Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstələri düzüb, xatirəsini ehtiramla yad ediblər.

Tədbiri giriş sözü ilə YAP Biləsuvar rayon təşkilatının sədri Kamil Mirzəyev açaraq, Yeni Azərbaycan Partiyasının yarandığı tarixdən, onun bu illər ərzində həyata keçirdiyi siyasətdən ətraflı danışıb: "Azərbaycanın ictimai-siyasi həyatında çoxşaxəli fəaliyyəti ilə xüsusi yer tutan YAP 27-ci ildönümünü qeyd edir. Lakin tarixə nəzər salarkən, bu 27 ilin heç də asan keçmədiyini müşahidə etmiş oluruq. 1993-cü ildə xalqın təkidli tələbi ilə Ulu Öndər Heydər Əliyev yenidən hakimiyyətə qayıtdı və bununla da, Azərbaycan inkişaf yoluna qədəm qoydu. Təbii ki, ölkəmizin əldə etdiyi uğurlarda partiyamızın da özünəməxsus rolu və payı var. Yeni Azərbaycan Partiyası bu gün də ölkə Prezidenti Cənab İlham Əliyevin Sədrliyi ilə Azərbaycan Respublikasının inkişafı üçün çox böyük siyasi fəaliyyət həyata keçirir və öz beynəlxalq fəaliyyətini daha da genişləndirir".

Ardı Səh. 12

# YAP xalqa söykənən nüfuzlu siyasi partiyadır

## Yeni Azərbaycan Partiyasının yaradılmasının 27-ci ildönümü münasibətilə bölgələrdə tədbirlər keçirilib

Əvvəli Səh. 11

Tədbirdə 26 saylı şəhər ilk partiya təşkilatının sədri Möhrab Abbasov, 42 saylı şəhər ilk partiya təşkilatının sədri Xalidə Ağayeva, partiya üzvü Mirhənifə Mirsultanov çıxış edərək, Yeni Azərbaycan Partiyasının üzvü olmaları ilə fəxr



etdiklərini, bundan sonra da ölkə Prezidenti İlham Əliyevin ətrafında sıx birləşməklə, Azərbaycan Respublikasının inkişafı üçün öz töhfələrini verəcəklərini söylədilər.

Tədbirin sonunda bir qrup partiya üzvü Fəxri Fərmanla mükafatlandırıldı. Eyni zamanda, partiyaya yeni üzv qəbul edilən gənclərə partiya vəsiqələri təqdim edildi.

### İsmayıllı

Yeni Azərbaycan Partiyası İsmayıllı rayon təşkilatında partiyanın yaradılmasının 27-ci ildönümü münasibətilə geniş tədbir keçirilib.

Tədbirdən öncə, iştirakçılar Ümummilli Lider Heydər Əliyevin xatirəsinə ucaldılmış abidəni ziyarət edib, üzərinə gül dəstələri düzərək, Ulu Öndərin xatirəsinə ehtiramla yad ediblər. Daha sonra tədbirdə YAP-ın yaradılmasından ötən





27 il ərzindəki fəaliyyətindən bəhs edən videoçarx nümayiş etdirilib.

Tədbiri giriş sözü ilə açan YAP İsmayıllı rayon təşkilatının sədri Sevil Əhmədova partiyanın yarandığı mürəkkəb tarixi-siyasi şəraitdən, keçdiyi çətin və şərəfli mübarizə yolundan, Ulu Öndər Heydər Əliyevin xalqın və dövlətin qarşısında göstərdiyi böyük xidmətlərdən danışıb. O, Azərbaycanda dövlətçiliyin möhkəmlənməsi və demokratik prinsiplərin bərqərar olmasının, demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinin uğurla həyata keçirilməsinin Dahi Rəhbər Heydər Əliyevin adı ilə bağlı olduğunu bildirib.

Daha sonra Talıstan kənd tam orta məktəbinin direktoru Aydın Əzizov YAP İsmayıllı rayon təşkilatı gənclər birliyinin sədr müavini Gülşən İldırımlı, YAP İsmayıllı rayon təşkilatı qadınlar şurasının sədri Xuraman Qurbanova, partiyanın rayon təşkilatının sədr müavini Zaur Muradov, idarə heyətinin üzvü Rüstəm Səmədov çıxış edərək Ulu Öndər Heydər Əliyevin Naxçıvanda çalışdığı vaxtlara nəzər salıblar. Xalqımızın Ona olan böyük inam və etimadından və güvənindən bəhs ediblər.

Tədbirdə çıxış edən İsmayıllı rayon icra hakimiyyətinin başçısı Mirdaməd Sadıqov Ümummilli Lider Heydər Əliyev ideyalarının uğurla davam etdirilməsi ilə ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın mühüm uğurlar qazandığını diqqətə çatdırıb. Dünyada müxtəlif böhran vəziyyətinin hökm sürməsinə baxmayaraq, ölkə iqtisadiyyatımızın sürətli inkişafı, ictimai-siyasi sabitliyimizin davamlı bərqərar olunması dövlət başçısı İlham Əliyevin müdrik və uzaqgörən siyasətinin nəticəsidir. Bu siyasətin davamı ölkəmizi daha da işıqlı gələcəyə aparacaq və dünyadakı nüfuzunu möhkəmləndirəcək.

Tədbirin sonunda YAP sıralarına yeni üzv qəbul edilən bir qrup gəncə partiyanın üzvlük vəsiqələri təqdim edilib.

### Astara

Dünən YAP Astara rayon təşkilatının inzibati binasında Yeni Azərbaycan Partiyasının yaranmasının 27-ci ildönümü münasibətilə tədbir keçirilib. Tədbir iştirakçıları, ilk öncə, YAP Astara rayon təşkilatının inzibati binasının foyesində



olan Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə tər çiçəklər düzüb, əziz xatirəsini yad ediblər.

YAP Astara rayon təşkilatının akt zalında davam edən tədbiri giriş sözü ilə YAP Astara rayon təşkilatının sədri Firudin Əhmədov açaraq Ulu Öndər Heydər Əliyevin yaratdığı Yeni Azərbaycan Partiyasının keçdiyi 27 illik tarixi yoldan, partiyanın hakim siyasi təşkilat kimi fəaliyyəti dövründə Azərbaycan dövlətinin daha da qüdrətlənməsi, sosial-iqtisadi, siyasi, mədəni həyatımızda əldə olunan misilsiz uğurlu nəticələrin bu gün partiyanın Sədri, Prezident İlham Əliyevin apardığı daxili və xarici siyasət nəticəsində, yeni-yeni uğurlara yol açmasından danışıb.

F.Əhmədov bildirib ki, 27 il tarixi baxımından, qısa müddət olsa da, ötən illər Yeni Azərbaycan Partiyasının həyatında, müstəqil - suveren Azərbaycan dövlətinin qurulmasında, möhkəmlənməsində və dünya dövlətləri arasında özünə layiqli yer tutmasında uğurlu illər olmuşdur.

Tədbirdə rayon icra hakimiyyətinin başçısının müavini Firəngiz Sadıqova, YAP Astara rayon təşkilatı Ağsaqqallar Şurasının sədri Rafiq Əliyev, rayon təşkilatı gənclər birliyinin sədiri Asiman Qasımlı, MRX həkimi Fuad Səmədov Ümummilli Lider Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyasının keçdiyi şərəfli yoldan və əldə etdiyi uğurlardan bəhs ediblər.

Sonda YAP sıralarına yeni qoşulan gənclərə partiya üzvlük vəsiqələri təqdim olunub.

### Xaçmaz

Dünən YAP Xaçmaz rayon təşkilatı Yeni Azərbaycan Partiyasının 27 illiyinə həsr olunan tədbir keçirib. İlk öncə, tədbir iştirakçıları Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə gül dəstələri düzərək, əziz xatirəsinə ehtiramlarını ifadə ediblər.

Tədbiri giriş sözü ilə açan YAP Xaçmaz rayon təşkilatının sədri Şəmsəddin Xanbabayev partiyanın keçdiyi tarixi yol və qarşıda duran vəzifələrdən danışıb. O, xatırladıb ki, 16 oktyabr 1992-ci ildə bir qrup Azərbaycan ziyalısı Ümummilli Liderimiz Heydər Əliyevə Yeni Azərbaycan Partiyasının yaradılması xahişi ilə müraciət ediblər: "Ölkəmizin çox ağır şəraitində, böyük təzyiqlər altında Naxçı-





vanda 1992-ci il noyabrın 21-də Ulu Öndər Heydər Əliyevin Sədrliyi ilə Azərbaycanın bütün regionlarından seçilmiş 550 nəfər nümayəndənin təmsil olunduğu Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi və Ümummilli Liderimiz Heydər Əliyev yekdilliklə partiyanın Sədri seçildi. Yeni Azərbaycan Partiyası mühüm siyasi mübarizə və təşkilatlanma yolu keçmişdir. 1993-cü ildə Ümummilli Lider Heydər Əliyev hakimiyyətə gəldikdən sonra ölkədə, qısa müddət ərzində siyasi sabitlik və sosial-iqtisadi inkişaf bərqərar olundu".

Ş.Xanbabayev, həmçinin, Yeni Azərbaycan Partiyası Azərbaycanın inkişafında, dövlətin güclənməsində, xalqımızın firavanlığına qovuşmasında misilsiz xidmətlər göstərdiyini vurğulayıb: "Bu gün bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi nəticəsində, sürətlə inkişaf edən Azərbaycan mühüm nailiyyətlər qazanır. Yarandığı gündən öz siyasi xəttinə sadiqliyi, xalq, dövlət qarşısında xidmətləri və ölkəmizin bir-birini əvəzləyən uğurları ilə cəmiyyətdəki mövqeyini daha da möhkəmləndirib".

Tədbirdə Milli Məclisin üzvü Eldəniz Səlimov, rayon icra hakimiyyəti başçısının I müavini İlhamə Nəzərova, rayon təşkilatının gənclər birliyinin üzvü Ülkər Lətifova, rayon təşkilatı Susay ərazi ilk partiya təşkilatının sədri Amil Rəhimov çıxış edərək, partiyanın 27 il ərzində keçdiyi şanlı yoldan, əldə etdiyi naliyyətlərdən, ölkəmizin iqtisadi inkişafından, ölkə Prezidenti İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasətdən danışıblar.

Sonda partiya sıralarına daxil olmuş bir qrup gəncə üzvlük vəsiqələri təqdim olunub.

### Şəmkir

Dünən YAP Şəmkir rayon təşkilatında Yeni Azərbaycan Partiyasının yaradılmasının 27-ci ildönümü ilə əlaqədar tədbir keçirilib.

Tədbirdə çıxış edən YAP Şəmkir rayon təşkilatının sədri Fəxrəddin Vəliyev YAP-ın yaranma tarixi, keçdiyi şərəfli yol və qazandığı nailiyyətlər barədə geniş danışıb: "Ulu Öndər Heydər Əliyevin rəhbərliyi azərbaycançılıq ideyalarının möhkəm təməli üzərində yaranan Yeni Azərbaycan Partiyası özünün 27 illik fəaliyyəti dövründə çox işlər görüb. Bu illər ərzində, Azərbaycan regionda öz mövqeyini əhəmiyyətli dərəcədə artırıb".

YAP Şəmkir rayon təşkilatı sədrinin müavini Məcid Şıxlıniski bildirdi ki, öz gücünü xalqın dəstəyindən alan Yeni Azərbaycan Partiyası ölkəmizdə davamlı islahatların həyata keçirilməsinə, ictimai-siyasi sabitliyin qorunmasına, Azərbaycanın inkişafına, dövlət müstəqilliyimizin güclənməsinə və ölkəmizin beynəlxalq nüfuzunun artmasına milsilsiz töhfələr verib.

Ardı Səh. 13

# YAP xalqa söykənən nüfuzlu siyasi partiyadır

## *Yeni Azərbaycan Partiyasının yaradılmasının 27-ci ildönümü münasibətilə bölgələrdə tədbirlər keçirilib*

**Əvvəli Səh. 12**

Tədbirdə YAP Şəmkir rayon təşkilatının fəalı Famil Həmidov çıxış edərək dövlət müstəqilliyimizin, partiya maraqlarının müdafiəsində, qorunmasında və inkişaf etdirilməsində gənclərin qarşısında duran mühüm vəzifələrdən danışıb və özündə yüksək intellektual potensialı birləşdirən YAP-ın sıralarında gənclərin də böyük üstünlük təşkil etdiyini və partiya sıralarına yeni qoşulanların mütləq əksəriyyətinin də gənclərdən ibarət olduğunu qeyd edib.

Tədbirdə çıxış edən YAP Şəmkir rayon təşkilatı Düyərli





kənd ərazi ilk partiya təşkilatının sədri Aybəniz Nəsibova Heydər Əliyev irsinin Azərbaycan gəncliyi üçün böyük məktəb olduğunu söyləyib. Qeyd edib ki, Yeni Azərbaycan Partiyası bundan sonra da Prezident İlham Əliyevin rəhbərliyi ilə Ümummilli Lider Heydər Əliyevin ideyalarını, məqsəd və məramlarını rəhbər tutaraq Azərbaycanın çiçəklənməsinə və dövlətçiliyimizin qüdrətlənməsinə böyük töhfələr verəcək.

Tədbirin sonunda partiyanın ictimai-siyasi həyatında yaxından iştirak edən bir qrup YAP fəalları rayon təşkilatı tərəfindən fəxri fərmanlarla təltif olunublar.

### Pirallahı

Dünən YAP Pirallahı rayon təşkilatının təşkilatçılığı ilə Yeni Azərbaycan Partiyasının yaradılmasının 27-ci ildönümü ilə bağlı bayram tədbiri keçirilib.

Tədbirdən öncə qonaqlar Yeni Azərbaycan Partiyasının qurucusu, Ümummilli Lider Heydər Əliyevin büstü önünə gül dəstələri qoyublar.

Neft Daşları NQÇİ-nin Mədəniyyət Evində keçirilən tədbirdə Yeni Azərbaycan Partiyasının yaranması və keçdiyi şərəfli yol haqqında video-çarxın nümayişindən sonra çıxış edən Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatının sədri Hikmət Şikarov qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin zəngin siyasi və dövlətçilik təcrübəsinə əsaslanan Yeni Azərbaycan Partiyası ölkəmizdə ən güclü və monolit siyasi təşkilatdır: "Ötən müddətdə yüksək nüfuz qazanmış Yeni Azərbaycan Partiyası siyasi mübarizələrlə dolu şərəfli yol keçmişdir. İqtidar partiyası olaraq, Yeni Azərbaycan Partiyası Ulu Öndər Heydər Əliyev siyasətinin avanqard qüvvəsi kimi, xalqımızın qarşısında dayanan vəzifələrin həll edilməsinə layiqli töhfəsini vermiş və bundan sonra da verəcək. Bu gün Prezident İlham Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyasının sıraları getdikcə genişlənir. Bu, dövlətimizin başçısına və Yeni Azərbaycan Partiyasına Azərbaycan cəmiyyətində olan dərin inamdan və ehtiramdan irəli gəlir".

Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər nazirinin birinci müavini, Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü Firdovsi Əliyev bildirib ki, artıq monolit birli-





yi, sosial bazası və yüksək intellekti olan bir siyasi təşkilata çevrilən, öz sıralarında ictimaiyyətin bütün təbəqələrini birləşdirən Yeni Azərbaycan Partiyası Ümummilli Lider Heydər Əliyevin parlaq ideyalarının daşıyıcısı kimi cəmiyyətdə öz aparıcı rolunu gündən-günə daha da möhkəmləndirir.

Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, iqtisad elmləri doktoru Ədalət Muradov çıxış edərək qeyd edib ki, Yeni Azərbaycan Partiyasının Proqramında irəli sürülmüş əsas vəzifələr dövlət müstəqilliyinin möhkəmləndirilməsi, demokratik, hüquqi, dünyəvi dövlətin qurulması, vətəndaşların dinc və firavan həyatının təmin edilməsidir. Partiya məfkurəsinin əsasını təşkil edən müstəqil dövlətçilik, qanunçuluq, azərbaycançılıq, yaradıcı təkamül, vətəndaş həmrəyliyi və sosial ədalət prinsipləri YAP-ın qarşısında duran vəzifələrin həyata keçirilməsinin ideya təminatı olaraq, mahiyyətcə Azərbaycanın siyasi gələcəyinin də ideya bazasını şərtləndirmiş olur.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru, tarix elmləri doktoru Cəfər Cəfərov çıxışında qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu Yeni Azərbaycan Partiyasının sıralarında bu gün yüz minlərlə insanın birləşməsi xalqın partiyaya olan dərin inam və ehtiramının göstəricisidir: "Partiyamız öz qarşısında duran vəzifələri böyük uğurla həyata keçirir. Yeni Azərbaycan Partiyası xalqın partiyasıdır. Bu gün partiya ölkəmizdə həyata keçirilən hüquqi dövlət, vətəndaş cəmiyyəti quruculuğu, demokratik inkişaf prosesində yaxından iştirak edir, müstəqil Azərbaycan dövlətinin yüksəlişinə, tərəqqisinə öz töhfəsini əsirgəmir".

Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatı sədrinin müavini, Neft Daşları NQÇİ-nin rəisi Qoçalı Mahmudov tədbirin təşkilatçılarına və qonaqlara təşəkkürünü bildirərək, müstəqil Azərbaycan dövlətinin qurulmasında və respublikamızın inkişafında Yeni Azərbaycan Partiyasının əvəzsiz xidmətlərindən danışıb.

Tədbir partiyanın ictimai-siyasi həyatında fəallıq göstərdiklərinə görə bir qrup YAP Pirallahı rayon təşkilatı üzvlərinin Fəxri Fərmanlarla təltif olunması və partiya sıralarına yeni qəbul edilmiş üzvlərə partiyaya üzvlük vəsiqəsinin təqdim olunması ilə yekunlaşdı.

Sonda respublikanın tanınmış incəsənət nümayəndələrinin iştirakı ilə konsert proqramı ilə davam edib.

### Qaradağ

Dünən YAP Qaradağ rayon təşkilatı Yeni Azərbaycan Partiyasının yaradılmasının 27-ci ildönümü münasibəti ilə rayonun Heydər Əliyev Mərkəzində tədbir keçirib.

Tədbir iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin mərkəzin ərazisində ucaldılan abidəsini ziyarət edərək, önünə gül dəstələri düzüb, xatirəsini ehtiramla yad ediblər. Sonra Yeni Azərbaycan Partiyasının fəaliyyətinə həsr olunmuş video-çarx nümayiş olunub.

Tədbirdə YAP Qaradağ rayon təşkilatının sədri, Milli Məclisin deputatı Aydın Hüseynov çıxış edərək, Azərbaycanda dövlətçiliyin möhkəmlənməsi və demokratik prinsiplərin bərqərar olmasının, demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinin uğurla və sürətlə həyata keçirilməsinin dahi rəhbər Heydər Əliyevin adı ilə bağlı olduğunu bildirib. O, vurğulayıb ki, Ümummilli Lider Heydər Əliyevin siyasi, iqtisadi, ictimai və mədəni həyatın bütün sahələrində gördüyü işlər, artıq Azərbaycanı inkişaf yoluna çıxarıb.

A.Hüseynov qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin yaratdığı Yeni Azərbaycan Partiyası Azərbaycanın siyasi palitrasına yeni nəfəs gətirib. Bu gün partiyamız Prezident İlham Əliyevin rəhbərliyi ilə Cənubi Qafqaz bölgəsinin ən güclü siyasi qüvvəsi kimi özünü təsdiq edib.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü Munis Bayramov Ümummilli Liderin əsasının qoyduğu siyasi kursun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini, bu siyasətin nəticəsində, hazırda ölkəmizin güclü dövlətə çevrildiyini faktlarla qeyd edib.

YAP İcra Katibliyinin şöbə müdiri, Milli Məclisin deputatı Sevinc Fətəliyeva çıxışında bildirib ki, xalqımızın təkidli tələbi nəticəsində, Ulu Öndər Heydər Əliyev Azərbaycanda siyasi hakimiyyətin layiqli rəhbəri olaraq, ölkəmizin uğur formulunun əsasını qoydu: "Bu gün də bu uğurlu siyasət ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham





Əliyev tərəfindən davam etdirilərək, xalqımızın inamını daha da gücləndirir. Artıq YAP, nəinki regionda, dünyada nüfuzlu bir siyasi təşkilat kimi tanınır".

Millət vəkili partiyanın 1992-ci ildən üzvü olan və təşkilatın inkişafında xüsusi xidmətləri ilə seçilən təhsil işçisi Hicrət xanım Qaradağlının fəaliyyətinin yüksək qiymətləndirildiyini qeyd edərək, 70 illiyi manasibətilə ona İcra Katibliyinin Fəxri Fərmanını təqdim edərək, xoş arzularını bildirib.

Qaradağ rayon icra hakimiyyəti başçısının birinci müavini Emil Abbasov partiyanın cəmiyyətimizdə, müstəqil respublikamızın inkişafında və iqtisadi qüdrətinin durmadan artırılmasında rolunu yüksək dəyərləndirərək yeni-yeni uğurlar arzulayıb.

YAP Qaradağ rayon təşkilatı gənclər birliyinin sədri Seyidməmməd Məmmədzadə və gənc fəal Röya Rzayeva çıxış edərək dövlət müstəqilliyimizin, partiya maraqlarının müdafiəsində, qorunmasında və inkişaf etdirilməsində gənclərin qarşısında duran mühüm vəzifələrdən danışıblar.

Sonda partiyaya qəbul edilmiş yeni üzvlərə vəsiqələr təqdim olunub, bir qrup partiya fəalı isə rayon təşkilatının ictimai-siyasi həyatında iştirakına görə fəxri fərmanla və mükafatlarla təltif edilib.

**Rəfiqə HÜSEYNOVA**
**Rövşən RƏSULOV**
**ZÜMRÜD BAYRAMOVA**

# Əli İnsanova açıq məktub



**Bayram Hüseynzadə, Siyasi elmlər üzrə fəlsəfə doktoru, Əməkdar jurnalist**

***Bu günlərdə sizin sosial şəbəkələrdə verilmiş bir neçə müsahibənizə baxdım. Dediyiniz yalanlarla hər kəsi, hətta özünüzü belə inandırmağa çalışırdınız ki, siz səhiyyə naziri vəzifəsində çalışdığınız 12 il ərzində kimsədən rüşvət almamısınız.***

Televiziya ekranlarında dəfələrlə nümayiş etdirilən dəbdəbəli saraylar, qızıl külçələr, saymaqla bitməyən pullar, valyutalar sizə məxsus deyil? Hamının bildiyi bu acı gerçəkləri danmaq özünü ziyalı, alim, akademik hesab edən bir kəsə yaraşarmı, Əli müəllim? İndi imdad dilədiyin, dəstək gözlədiyin bu Xalq bilir ki, göz qamaşdıran, ucu-bucağı görünməyən o saraylarınızın hər daşında, hər kərpicində bir xəstə fəryadı, bir ana naləsi var. Özünüz də bilirsiniz ki, siz Azərbaycan səhiyyəsinin ən uğursuz naziri olmusunuz. İnsanların az qala çörəkdən, sudan daha çox sağlamlığa ehtiyacı olduğu bir dövrdə- 90-cı illərdə səhiyyəmizi siz acımasızcasına dağıtdınız, məhv etdiniz. İndi özünüz düşünün, sizin yaratdığınız rüşvət, süründürməçilik bataqlığında 12 il əziyyət çəkmiş insanları mənasız sözlərinizlə bu gün necə inandıra bilərsiniz?

Sosial şəbəkədəki çıxışlarınızın birinin altında, sizə yazılmış şərhləri, müraciətləri oxudum. İnsanların, cəmiyyətin sizə olan nifrətini, lənətini gözlərimlə gördüm. Sizə ünvanlanmış 4000-dən çox şərhdə yalnız 3-4 nəfər sizi müdafiə etmişdi. Düşündüm ki, bunlar da ya sizin korrupsiya ortaqlarınız, ya əməllərinizdən xəcalət çəkə-çəkə yazan övladlarınız, nəvələriniz, ya da təsəlli vermək istəyən qohumlarınızdır. Sizə yazılan o nifrət dolu şərhlərin səbəbi bilirsinizmi nədir, cənab İnsanov? Bax bu nifrətin kökündə sizin 12 illik yarıtmaz fəaliyyətiniz dayanır.

Çıxışınızda deyirsiniz ki, “Xəstəxanaların həyətyanı sahəsini mən satmamışam. İcra başçıları satıb, həyətində də çoxmərtəbəli binalar tikdiriblər. Mənim də o məmurlara gücüm çatmırdı”. Bu cür ağ yalanları danışmaq bir akademikə yaraşarmı, Əli müəllim! Siz nazir olduğunuz o illərdə, mən başqa bir nazirlikdə çalışırdım. Hansı səlahiyyət və təsir imkanlarına malik olduğunuzun dəfələrlə şahidi olmuşam. Axı siz vəzifədə olanda adlarını çəkdiyiniz, çirkin əməllərinizə şərik axtardığınız o insanlar xəstəxanaların, tibb ocaqlarının qapısına belə yaxınlaşa bilmirdilər, cənab İnsanov. Çox təəssüflər olsun ki, Ümummilli Liderimizin sizə göstərdiyi yüksək etimadı, dövlətimizin yaratdığı belə vəzifə imkanlarını, ancaq şəxsi, çirkin məqsədləriniz üçün istifadə etdiniz.

Bu gün çıxışlarınızda özünüzü siyasət aləminin Ronald Reyqan, Con Kennedi kimi parlaq şəxsiyyətləri ilə müqayisə edirsiniz. Yeri gəldi-gəlmədi, onlardan uyğunsuz nümunələr göstərirsiniz. Amma unutmayın ki, sizi elə özünüzə də böyük göstərən, sonradan etimadını doğrulda bilmədiyiniz Ümummilli Liderimizin, cənab Prezidentimizin etibarı, yüksək etimadı idi. Siz nazir olana qədər elə də tanınmış bir sima deyildiniz. Nə həkim kimi bir həkim, nə də alim kimi bir seçilən alim idiniz. Qısa əhatənizdə tanıyanlar isə sizi ən çox əməlinizlə adı düz gəlməyən, qeyri-adi soyadınıza görə xatırlayırdılar. Böyük dövlət xadimi Heydər Əliyevin diqqətini çəkməyiniz isə Ümummilli Liderimizin ölkənin ən ağır vaxtlarında sizi vətəninə, dövlətinə bağlı şəxs hesab edib etimad göstərməsi idi ki, siz bu etimada da layiq olmayıb, xəyanətkar üzünüzü göstərdiniz.

Siz uzun illər layiq olmadığınız bir mövqelərdə Heydər Əliyev kimi bir şəxsiyyətin yanında çalışdınız. Bu sizin üçün bir tarixi şans idi. Heç olmasa, bu böyük şəxsiyyətdən nümunə götürə bilərdiniz. Uzun illər Azərbaycana rəhbərlik etmiş, SSRİ kimi dövlətin əsas şəxslərindən biri olmuş Heydər Əliyevin vəzifədən gedəndən sonra özünün qurub yaratdığı bir ölkədə nə yaşamağa evi, nə də bir qarış torpağı vardı. Sizdən fərqli olaraq, ağır bir şəraitdə, qohumlarının evində yaşamağı insanların qanı, ah-naləsi hesabına alınan rüşvətlərlə tikilmiş saraylardan üstün tuturdu Ümummilli Liderimiz. Bax bu idi Onu Xalqa sevdirən!

Həbsxanadan çıxandan sonra yenidən siyasət meydanına atılanda anlamalıydınız ki, bu yolda uğur qazanmaq istəyən birinin keçmişi təmiz, fəaliyyəti şəffaf olmalıdı. Axı səhiyyə elə sahədir ki, bu hər evlə, hər insanla birbaşa bağlıdır. Dövlətin yaratdığı pulsuz səhiyyə imkanlarından istifadə edə bilməyən insanlar sizin əməllərinizi necə unuda bilərlər?

Bir çıxışınızda ağızdolusu demokratiyadan, insan hüquqlarından danışmağınız məni, sözün əsl mənasında hiddətləndirdi. Xeyli zamandır ki, bu mövzuda yazmaq istədiyim bu yazını qələmə almağımın da əsas səbəblərindən biri oldu. Düşündüm ki, 12 il tabeliyindəki işçilərlə, alimlərlə, həkimlərlə, ondan ümid istəyən insanlarla soyadının əksi olan bir formada davranan, heç bir qanuna, qaydaya məhəl qoymayan, hətta öz peşə vəzifəsini yerinə yetirən bir media nümayəndəsinə, xanım jurnalistə özünəməxsus kobud səs tonu ilə “rədd ol” deyən bir şəxs bu sözləri indi dilinə necə gətirə bilər?

2000-ci ilin əvvəllərində mötəbər bir tədbirdə alovlu çıxış etdiniz. Mən də o tədbirdə idim. Partiyamızın qurultaylarından biri idi. İndiki müxalifət liderlərinə kobud, bir nazirə, akademikə yaraşmayan ifadə işlətdiniz, “Onlar mənim dabanım səviyyəsində adamlardır”- dediniz. Təəssüf ki, indi özünüz də hakimiyyət naminə o insanlarla birgə Xalqa qarşı elə o səviyyədə də mübarizə aparırsınız. Budurmu sizin siyasət dediyiniz, cənab İnsanov!

Bu yazıda qeyd etdiyim fikirlərin təkcə mənim deyil, milyonlarla insanın ürəyindən süzülüb gəldiyini özünüz də bilirsiniz. Ancaq bütün bunlara baxmayaraq, sizə bildirirəm ki, insanların xəstəliyindən, ah-naləsindən yığdığınız o pulları heç olmasa öz başını belə qoruya bilməyən müxalifət “lider”lərinin eyş-işrətinə xərcləməyin. Bu ahıl yaşınızda tarixdə əbədi qalan insanlardan ibrət götürün. Bir xəstəxana tikdirin, bir xeyriyyə fondu yaradın. Bəlkə bu yol sizi o haqqını yediyiniz, əzdiyiniz insanların lənətindən, nifrətindən, məzlumların ah-naləsindən xilas edər.

**ELAN**

ADPU-nun filologiya fakültəsinin ingilis dili ixtisası üzrə təhsil alan 1-ci kurs tələbəsi Məmmədova Səidənin adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

***

**“Nar” abunəçilərinin nəzərinə!**

03.12.2019-cu il tarixindən etibarən, “Nar”ın günlük internet paketlərində dəyişikliklər olacaq. Daha ətraflı məlumatı “nar.az” saytından əldə edə bilərsiniz.

# Əli Kərimlinin Müsavata təsirləri

## *Tofiq Yaqublu “Milli Şura”ya sədr keçsə, AXCP müsavatçıları özəlləşdirəcək*

***Son günlər müxalifətin radikal qanadında baş verən funksionerlərarası qarşıdurmalar bir-birini tez-tez dəyişən hadisələr düşərgənin çıxılmaz durumda olması reallığını ortaya qoyur.***





Xüsusilə də, “Milli Şura”nın sədri Cəmil Həsənlinin fəaliyyətsizliyi və AXCP sədri Əli Kərimlinin ona qarşı oynadığı oyunlarının, bu gün yenidən gündəmə gəlməsi, bir daha “Yurd” şefinin məkrli məqsədlərini aydın şəkildə göstərməkdədir. Bir məqamı da vurğulamaq lazımdır ki, sosial şəbəkələrdə və mediada, əvvəllər olduğu kimi, bu gün də C.Həsənlinin guya öz xoşu ilə sədrlik postunu Müsavat funksioneri Tofiq Yaqubluya verəcəyi görüntüsü yaradılsa da, əslində, reallıq tamamilə başqa istiqamətə yönəlib.

Son günlər Müsavat partiyası rəhbərliyinin miqrant alveri məsələsində ifşası, eyni zamanda, AXCP-”Milli Şura” cütlüyünün düşdüyü böhranlı vəziyyət, belə bir nəticəyə gəlməyə zəmin yaradır ki, müxalifətin radikal qanadı, bütövlükdə, siyasi məhv prosesini yaşamaqdadır. Bundan qurtulmaq üçün edilən cəhdlər öz nəticəsizlikləri ilə görünməkdədir.

### Əli Kərimlinin gizli Müsavat planı, yaxud “başqan oyunları”

Müsavat rəhbərliyi zaman-zaman T.Yaqublunun, Müsavat üzvü olmasına rəğmən, onun “Milli Şura”nı və AXCP sədri Ə.Kərimlini təbliğ etməsinə qısqanc münasibət bildirib. Daha dəqiq desək, C.Həsənlinin “Milli Şura”nın sədri postundan atılması və ətrafındakı söz-söhbətlər bir çox məsələləri də önə çıxarıb. Elə bu gün C.Həsənlinin yerinə müsavatçı T.Yaqublunun sədr olması məsələsi, həmçinin, Müsavat partiyasında da müzakirə predmetinə çevrilib. Eyni zamanda, Müsavat rəhbərliyi zaman-zaman T.Yaqublunun Müsavat üzvü olmasına rəğmən, onun “Milli Şura”nı və AXCP sədri Ə.Kərimlini təbliğ etməsinə qısqanc münasibət bəsləyib. Ancaq bütün bunlara baxmayaraq, Müsavatın qurultayında başqanlığa da namizədliyini irəli sürdü. Bir nüansı da vurğulamaq lazımdır ki, T.Yaqublu başqan seçilməsə də, AXCP sədri Ə.Kərimli T.Yaqublunun başqan kimi seçilməsində maraqlı idi, bu vasitə ilə AXCP-nin Müsavata təsirini panlaşdırırdı. Bu plan C.Həsənlinin “Milli Şura”dan uzaqlaşdırılması və T.Yaqublunun onun yerinə gəlməsi məsələsini gündəmə gətirirdi.

Sirr deyil ki, T.Yaqublunu Sevinc Osmanqızının TV “Youtube” kanalında “ulduza” çevirməsi də, əslində, Ə.Kərimlidən gələn məsləhətin nəticəsidir. Bir məqamı da qeyd etmək lazımdır ki, Ə.Kərimlinin şəxsi nəzarətində olan kanallarda T.Yaqublu əsas ekspertlərdən biridir. Bütün bu gedişlərdə Ə.Kərimlinin məqsədi bu yolla Müsavat partiyasını, bütövlüklə, öz nəzarəti altına salmaq, “Milli Şura” adlı dərnəyi Müsavat loqosu ilə də “bəzəməyə” çalışmaqdır.

Əldə olunan məlumata görə, Ə.Kərimlinin adamları, hətta Müsavatın qurultayı ərəfəsi Müsavatın rayon təşkilatlarının fəalları ilə görüşlər keçirib və onları A.Hacılıya qarşı çıxmağa həvəsləndiriblər. Məqsəd isə, Müsavatı AXCP-nin yedəyinə çevirmək. Daha doğrusu, Müsavatı dağıtmaq.

### Rəfail Becanov: “İndi də Ə.Kərimli T.Yaqublunu xərcləməyə hazırlaşır”

AXCP adına iddialı olan digər qanadın funksioneri Rəfail Becanov isə bildirib ki, belə bir plan əvvəldən mövcud olub: “Yadınızdadırsa, hələ Müsavatın qurultayına hazırlıq gedən ərəfədə, belə bir məlumat dövriyyəyə buraxıldı ki, T.Yaqublu Müsavata başqan seçilməsə, “Milli Şura”ya rəhbər gətirilə bilər. Bəllidir ki, bütün bu layihələri cızan Ə.Kərimlidir. Həmin vaxt C.Həsənlidən belə mövqe ona görə tələb olunmadı ki, birdən T.Yaqublunun əli ilə Müsavatı ələ keçirmək mümkün olar. Ə.Kərimlinin planı bu idi ki, özünün rəhbərlik etdiyi quruma, “Milli Şura”ya və Müsavata nəzarəti ələ keçirsin. Bu plan alınmayanda, C.Həsənliyə belə bir fikri söylətdirdi. Əminliklə deyə bilərəm ki, bütün bunlar Ə.Kərimlinin diqtəsi ilə baş verir. Məhz T.Yaqublunun üzərində təsadüfən dayanılmayıb. Həmin persona, bir qədər radikal mövqeli şəxs kimi tanınır. Ə.Kərimli 19 oktyabr aksiyasından sonra bu fikrində daha qəti olmağa başladı. Çünki o, həmin hadisələrdən sonra böyük sarsıntı və qorxu keçirib. Bu səbəbdən də, Ə.Kərimli, qəti qərara gəlib ki, bundan sonra icazəsiz aksiyaların önünə çıxmasın. Bunun üçün də, ən yaxşı namizəd kimi, T.Yaqublunu görür. Bir az loru dillə desək, indi də T.Yaqublunu xərcləməyə hazırlaşır. Çünki onun xislətində belə bir niyyət var : “kimdən nə qədər bacarırsansa, o qədər də istifadə et”. İnanmıram ki, T.Yaqublu Ə.Kərimlinin bütün istəklərini canla-başla yerinə yetirməyə hazır olsun. İndiki vəziyyətdə isə, bu tandem üçün birlik bir qədər cazibədar görünür”.

### İ.Qəmbər: “Milli Şura” xarici təşkilatlarla əlaqəli olduğuna görə Müsavat partiyası bu qurumu tərk edib”

Düzü, bu fikri oxuyanda, olan-qalan ətim də tökülür. Gör bu sözü kim deyir- satqın, əli xalqın qanına batmış, Azərbaycanın uğurlarına kölgə salan sabiq başqan İ.Qəmbər. Deyir “kor kora kor deməsə, bağrı çatlar”. Və bu yerdə A.Hacılı “Facebook” sosial şəbəkəsində yazdığı statusda bildirir ki, “ümid edirəm ki, Tofiq bəy “Milli Şura”nın sədri olsa, yenə eyni məqsədlə o təşkilatdan daha çox Müsavatı təbliğ edəcək”.

Bu yerdə, onu da xatırlatmaq yerinə düşərdi ki, Müsavat partiyasının sabiq başqanı İ.Qəmbər isə partiyasının “Milli Şura”dan çıxmasını bu qurumun xarici təşkilatlarla əlaqəli olması ilə bağlamışdı. T.Yaqublu isə bildirmişdi ki, “Milli Şura”nın sədri seçilsə belə, Müsavat partiyası heç vaxt bu təşkilata geri dönməyəcək. Ona görə də, A.Hacılı yuxarıda qeyd edilən sətiraltı eyhamlarını T.Yaqubluya ünvalayıb. Daha doğrusu, onu saxtakarlıq yolları ilə başqanlıq postuna oturdan İ.Qəmbəri tapdayıb keçmək və yenidən “Milli Şura”ya qatılmaq məsələsi A.Hacılının ağlının ucundan keçmir. Çünki o, yaxşı bilir ki, bu addıma getsə, başqanlıq kreslosunu da itirməli olacaq. Hər halda, bunu da zaman göstərəcək. Ancaq bütün bunlar, onu təsdiqləyir ki, artıq qoca “professor” bu oyunun qurbanı ola bilər.

***Rəfiqə HÜSEYNOVA***

# Vətəndaş cəmiyyətində dialoq və əməkdaşlıq naminə birgə fəaliyyət

***Dialoq və əməkdaşlıq naminə birgə fəaliyyət sahəsi vətəndaş cəmiyyətinin fəaliyyəti ilə əlaqəsi olan beynəlxalq hüquqi standartlar qərar qəbuletmə proseslərində vətəndaş cəmiyyəti üçün yer təmin edir. Vətəndaş cəmiyyətinin fəaliyyəti üçün təhlükəsiz və əlverişli şərait insan hüquqları sahəsində beynəlxalq standartlara əsaslanan etibarlı milli hüquqi baza səviyyəsində dəstəklənməlidir.***

İfadə azadlığı, birləşmək, dinc toplaşmaq və dövlət işlərində iştirak etmək hüququ insanlara müsbət dəyişikliklər naminə səfərbərlik imkanı verən hüquqlardır. Hər bir şəxs, fərdi və ya başqaları ilə birlikdə, bu hüquqlardan yararlanmalıdır. Onlar vətəndaş fəaliyyətinin əsasını təşkil edirlər. İnsan hüquqları üzrə əsas beynəlxalq sənədlərin əksəriyyəti ictimai azadlıqların müdafiəsi ilə birbaşa əlaqəsi olan və ayrı-seçkiliyə yol verməməklə bağlı bütün prinsiplərə istinad olunan müddəaları özündə birləşdirir: X İnsan Hüquqları haqqında Ümumi Bəyannamə (19, 20, 21-ci maddələr); X Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt, fikir və fikri sərbəst şəkildə ifadə etmək, dinc məqsədlə toplaşmaq və birləşmək, və ictimai həyatda iştirak azadlığı hüquqlarını təmin edir (19, 21, 22, 25-ci maddələr); X İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Pakt, həmkarlar ittifaqları yaratmaq və onlarda iştirak etmək, həmçinin, mədəni həyatda iştirak etmək hüququnu təmin edir (8, 15-ci maddələr); X Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiya, qadınların hüququ, siyasi, iqtisadi və mədəni həyatda iştirak etmək hüququnu təmin edir (maddə 3); X İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Beynəlxalq Konvensiya ifadə azadlığı, dinc toplaşmaq və birləşmək və ictimai işlərdə iştirak etmək hüququ ilə bağlı ayrı-seçkiliyi qadağan edir (maddə 5); X Uşaq Hüquqları haqqında Konvensiya ifadə, birləşmək və dinc toplaşmaq azadlığı hüququnu təmin edir (13, 15-ci maddələr); X Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiya fikir və sərbəst ifadə azadlığı, informasiyaya çıxış əldə etmək hüququ, siyasi və ictimai həyatda, eləcə də, mədəni həyatda iştirak hüququnu təmin edir (21, 29, 30-cu maddələr); Maldiv adalarında 2014-cü ildə, regional QHT-lər və beynəlxalq təşkilatlarla birlikdə, islam dini çərçivəsində gender bərabərliyinin həyata keçirilməsi işində məlumat mübadiləsi və regional təcrübələri müzakirə etmək məqsədilə, hökumət qadın hüquq müdafiəçiləri üçün beş günlük forumun keçirilməsinə dəstək vermişdi. Meksikada hüquq müdafiəçiləri və jurnalistlərin müdafiəsinə dair 2012-ci ildə qəbul edilmiş qanun hüquq müdafiəçiləri və jurnalistlərin üzləşdikləri təhdidləri aradan qaldırmaq üçün milli mexanizmin yaradılmasını nəzərdə tutur. Həmin qanun beynəlxalq QHT-lərin və təşkilatların, eləcə də, OHCHR-in Meksika Nümayəndəliyinin dəstəyi ilə, vətəndaş cəmiyyəti subyektləri və Konqresin iştirakı ilə hazırlanmışdır. Nepalda 2010-cu ildə, Məzhəb Ayrı-seçkiliyi və Toxunulmazlığı barədə Qanun vətəndaş cəmiyyətinin, dalitlərin işləri üzrə Milli Komissiyanın və OHCHR-in Nepal Nümayəndəliyinin iştirakı ilə işlənib-hazırlanmışdır. Həmin qanun 2011-ci ilin mayında qəbul edilmişdir. Yeni Zelandiyada 2011-ci ildə Əlillər haqqında Qanun Əlillərin Assosiasiyasının iştirakı ilə hazırlanmışdır. Dinc toplaşmaq və sərbəst birləşmək azadlığı hüququ ilə bağlı BMT-nin xüsusi məruzəçisinin hesabatı, Vanuatuda, 2013-cü ildə Hökumət Universal Periodik İcmal Komitəsi yaratmış və komitənin sədr müavini vəzifəsinə Vanuatu Qeyri-Hökumət Təşkilatları Assosiasiyasının nümayəndəsini təyin etmişdi. Bundan başqa, vətəndaş cəmiyyəti insan hüquqları haqqında məruzələrin təqdim edilməsi üzrə ölkənin öhdəliklərini əlaqələndirmək səlahiyyətini həyata keçirən İnsan Hüquqları üzrə Milli Komitədə də təmsil olunur. 2013-cü ildə, Əlillərin Hüquqları üzrə Komitənin hesabatının hazırlanmasında əlil şəxslərlə işləyən təşkilatlarla geniş məsləhətləşmələr aparılmışdı. X Bütün şəxslərin zorakı tərzdə itməkdən qorunması haqqında Beynəlxalq Konvensiya zorakı itmə şəraitinin və itmiş şəxslərin taleyinin müəyyənləşdirilməsinə yardım göstərməklə məşğul olan təşkilatlar və assosiasiyalar yaratmaq və bu cür işləri həyata keçirən təşkilatların və assosiasiyaların işində sərbəst şəkildə iştirak etmək hüququnu nəzərdə tutur (maddə 24); X Bütün işçi-miqrantların və onların ailə üzvlərinin hüquqlarının müdafiəsinə dair Beynəlxalq Konvensiya birləşmək azadlığı hüququnu təmin edir (maddə 26). Vətəndaş cəmiyyətinin fəaliyyətinin qarşısını almaq, məhdudlaşdırmaq, dayandırmaq və ya fəaliyyət nəticələrini ləğv etmək üsulları. Professor Nigel Rodley: "Hökumətlər də daxil olmaqla, bizlərdən heç kim bütün faktlara, ən yaxşı ideyalara malik ola və ya həll etməyə çalışdığımız problemlərin kökündə duran bütün səbəbləri bilə bilməz. Yalnız kollektiv təcrübə bizə xeyir gətirə bilər. Məhz buna görə də, hər hansı qərar qəbul etməzdən əvvəl, bütün maraqlı tərəfləri, xüsusilə, marginal qrupları dinləmək çox vacibdir. Misal üçün, İnsan Hüquqları Komitəsi hökumətlər, BMT və vətəndaş cəmiyyəti də daxil olmaqla, ən müxtəlif mənbələrdən məlumat toplayır. Bu, hökumətlərin öz qanun və təcrübələrini insan hüquqları ilə bağlı ratifikasiya etmiş olduqları sazişlər çərçivəsində götürdükləri öhdəliklərlə daha çox uyğunlaşdırmaq istiqamətində görməli olduqları əməli tədbirlərlə əlaqədar əsaslı yekun qeydlər və tövsiyələr hazırlamaqda bizə kömək edir, keçirilməsini təşviq etmək və qorumaq üçün də məsuliyyət daşıyır. İfadə, birləşmək və dinc toplaşmaq azadlıqlarından istifadə ilə bağlı xüsusi vəzifə və məsuliyyətlər vardır və onların istifadəsinə müəyyən məhdudiyyətlər tətbiq oluna bilər. Hər hansı məhdudiyyətlər qanunla müəyyən edilməli və yalnız digər şəxslərin hüquqlarına və nüfuzuna hörmət və ya dövlət təhlükəsizliyi və ya ictimai asayişin mühafizəsi, ictimai asayiş, əhalinin sağlamlığı və ya mənəviyyatı baxımından zəruri olmalıdır. Bu cür əsaslar heç bir halda çoxpartiyalı demokratiyanın, demokratik prinsiplərin və insan hüquqlarının təbliğinin qarşısının alınması məqsədilə tətbiq edilə bilməz. Vətəndaş cəmiyyətinin işinə mane olan qanunvericilik və normativ xarakterli tədbirlər 4.2." Əsassız tədbirlər qanunlar və normativ aktlar, məsələn, aşağıdakı yollarla vətəndaş cəmiyyətinin azadlıq və müstəqilliyini məhdudlaşdıra bilər: X Müsbət fayda (məsələn, vergi güzəştləri) olmadan qeydiyyat tələbləri; X Mümkün fəaliyyət növlərinin məhdudlaşdırılması; X Qeydiyyatsız fəaliyyətə görə cinayət sanksiyalarının tətbiqi; X Konkret birliklərin, o cümlədən, beynəlxalq QHT-lərin və ya xaricdən maliyyələşən birliklərin və ya insan hüquqları üzrə fəaliyyət göstərən qrupların qeydiyyatına məhdudiyyətlərin tətbiqi; X Hansı şəxslərin və ya təşkilatların bu və ya digər fəaliyyətlərə məşğul ola biləcəyi ilə bağlı meyarların və ya bu cür fəaliyyətlərə məhdudiyyətlərin tətbiqi; X Maliyyələşdirmə mənbələri (məsələn, xarici mənbələr) ilə bağlı məhdudiyyətlərin tətbiqi; X Ayrı-seçkilik müddəalarının əksini tapdığı və ya bəzi qruplara qeyri-mütənasib mənfi təsir göstərən dinc toplaşmaq, birləşmək və ifadə azadlığını tənzimləyən qanunların qəbulu. Bundan başqa, ağır inzibati prosedurlar və diskresion tədbirlər də VCS-lərin fəaliyyətlərinin həyata keçirilməsinə mane ola və ya onları ləngidə bilər. Məlumat əldə etmək azadlığı hüququ məhdudlaşdırıldıqda, VCS-lərin siyasət prinsiplərinin formalaşdırılması proseslərinə daha az fəal müdaxilə imkanı olur. Qərarların qəbulu proseslərində həddindən artıq məhdud və ya sərt iştirak formaları (məsələn, VCS-lərə verilən "müşahidəçi statusu" və ya məhdud səsvermə hüququ) da iştirakla bağlı maneələrdəndir. Birləşmək sərbəstliyi standartları milli və yerli səviyyədə tətbiq olunduğu qədər beynəlxalq səviyyədə də tətbiq edilir.3 3 Dinc toplaşmaq azadlığı və birləşmək hüququ üzrə BMT-nin xüsusi məruzəçinin çoxtərəfli təsisatlar kontekstində hesabatı, A/69/365. Vətəndaş cəmiyyəti hökuməti tənqid etdikdə və ya onun baxışlarına, siyasətinə və fəaliyyətinə etiraz etdikdə, qanunların qeyri-müəyyən müddəaları düzgünlük və qanunilik adı altında (məsələn, çirkli pulların yuyulması, terrorla mübarizə, milli təhlükəsizlik, ictimai əxlaqın mühafizəsi, diffamasiyaya qarşı mübarizə, milli suverenliyin qorunması) tətbiq edilə və aşağıdakı nəticələrə gətirib çıxara bilər: X Rəhbərliyin və daxili idarəetmənin əsassız olaraq yoxlanılması; X Qeydiyyatı ləğv etmək təhdidləri və ya faktiki ləğv etmək; X Ofislərin məcburi şəkildə bağlanması; X Axtarış və əmlakın müsadirə edilməsi; X Hədsiz cərimələr; X Saxta ittihamlar əsasında təqiblər; X Əsassız həbslər və həbs tədbirləri; X Səfərlərin qadağan edilməsi; X Vətəndaşlıqdan məhrum etmə; X Mitinq və yığıncaqların əsassız şəkildə məhdudlaşdırılması və ya ləğvi. BMT-nin İnsan Hüquqları Şurasının vətəndaş cəmiyyətinin fəaliyyəti üçün təhlükəsiz və əlverişli şəraitin yaradılması və qorunmasına dair Qətnaməsində de-yure və de-fakto olaraq qeyd olunur: " bir sıra hallarda... milli hüquqi və inzibati müddəalar... beynəlxalq hüquqa zidd şəkildə vətəndaş cəmiyyətinin işinə mane olmaq və onun təhlükəsizliyinə təhdid məqsədi daşımışdır." 4.3. Qanunun təsir dairəsindən kənar təqib, hədə-qorxu və repressiyalar vətəndaş cəmiyyətinin fəaliyyət sahəsini məhdudlaşdıra biləcək qanunla müəyyən olunan məhdudiyyətlər və əsassız qəbul edilən qanunlarla yanaşı, VCS-lər və ya onların ailə üzvlərinə qarşı təhdidlər və ya digər psixoloji təzyiq formaları və ya fiziki hücumlar onların sərbəst fəaliyyətinə mane ola bilər. Bu cür hərəkətlərlə bağlı nümunələrə daxildir: X Telefonla edilən hədə-qorxular; X Təqib; X Fiziki hücum və ya cinsi təcavüz; X Əmlakın məhv edilməsi; X İş və ya gəlir mənbəyindən məhrum etmə X İşgəncələr; X Qətllər. Qadın hüquq müdafiəçiləri kişi həmkarlarının üzləşdikləri risklərlə üzləşirlər. Lakin onlar qadın olduqlarından, onlar həm də məqsədyönlü şəkildə cinsi zəmində hə də və zorakılıqlara məruz qalırlar. Tez-tez, qadın hüquq müdafiəçilərinin işi ailə haqqında ənənəvi təsəvvürlərə və cəmiyyətdəki cinsi rollara təhdid kimi qiymətləndirilir və bu, geniş kütlələr və hakimiyyət orqanları tərəfindən qəbul edilmir. Onların işi icma liderləri, dini qruplar, ailələr və ictimaiyyət tərəfindən din, şərəf və mədəniyyətə təhdid hesab edildiyindən, qadın hüquq müdafiəçilərinə damğa vurulur və onlar sürgün edilirlər. Bundan başqa, onların fəaliyyətinin özü və ya nail olmaq üçün çalışdıqları hədəflər (məsələn, qadın hüquqlarının və ya hər hansı gender hüquqlarının həyata keçirilməsi) də onları hücumların hədəfinə çevirir. Qadın hüquq müdafiəçilərini təcrid etmək və onların işləmək həvəsini öldürmək məqsədilə, onların ailələri də təhdid və zorakılıqların hədəfinə çevrilirlər. Qadın hüquq müdafiəçiləri, kişi həmkarları ilə müqayisədə, müxtəlif zorakılıq formalarına və digər hüquqpozmalara, xurafatlara, təcrid olunmalara və məhrumiyyətlərə daha çox məruz qalırlar. Qadınların həm yerli, həm də beynəlxalq səviyyədə müdafiə mexanizmlərini və onların problemləri ilə bağlı digər cavab tədbirlərini gücləndirmək məqsədilə, bu cür problemlərin BMT-nin Baş katibi Pan Gi Munun Vətəndaş Cəmiyyətinə dəstəklə bağlı yüksək səviyyəli tədbirdəki çıxışından 23 sentyabr 2013-cü il Səfir Laura Düpüi Lassere, Uruqvayın BMT-nin Cenevrədəki daimi nümayəndəsi və İnsan Hüquqları Şurasının sədri (2011-2012). "Vətəndaş cəmiyyəti"nə daxil olan insanlar və qruplar tez-tez başqalarının həyatını yaxşılaşdırmaq üçün öz həyatlarını riskə atırlar. Onlar əbədi susdurula biləcəklərini dərk etdikdə belə, həqiqəti söyləyirlər. Onlar digərlərinin əhəmiyyət vermədikləri və ya hətta mövcudluğundan belə xəbərdar olmadıqları problemləri işıqlandırırlar. Onlar bizim hüquqlarımızı müdafiə edirlər. Onlar öz hüquqlarına layiqdirlər." Təqib, hədə-qorxu və repressiya hərəkətləri hüquq müdafiəçiləri və ya şahidlərə təzyiq göstərməklə onlara öz problemlərini səsləndirməyə və BMT və ya digər beynəlxalq təşkilatlarla işləməyə mane olur.

***VAHİD ÖMƏROV,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 22 noyabr


# "Nar" abunəçilərini arzuolunmaz mesajlardan və avtomatik qoşulmalardan qoruyur

Müştəriyönümlü strategiyası ilə seçilən "Nar", təklif etdiyi məhsul və xidmətlərini abunəçilərdən gələn sorğular əsasında davamlı olaraq inkişaf etdirir. Mobil operator istifadəçilərin ehtiyac duyduğu əlavə xidmətləri yüksək keyfiyyətdə təqdim etməklə yanaşı, şirkətin şəffaflıq prinsipinə uyğun olaraq abunəçilərini istənilməyən qoşulmalardan da qoruyur. Mobil operator arzuolunmaz SMS göndərişləri, vebsəhifələrdən avtomatik qoşulma, səsli bələdçi xidməti ilə yönləndirmələr kimi müştəri təcrübəsinə mənfi təsir edə biləcək xidmətlərin abunəçilərə təqdim edilməməsi üçün lazımi tədbirlər görür. Belə ki, "Nar" abunəçiləri narahat edə biləcək xidmət göstərən məzmun təminatçısı şirkətləri ilə əməkdaşlıq etmir. Bu isə "Nar" abunəçilərinə yalnız şəxsi seçim əsasında ehtiyac duyduqları xidmətləri aktivləşdirmə imkanı verir.

"Müştərilərimizin istifadə etdikləri xidmətlər, eləcə də bu xidmətlərə qoşulma üsullarında tam şəffaflığın təmin edilməsi "Nar"-ın müştəriyönümlü strategiyasının əsas tərkib hissələrindən biridir. Məqsədimiz müştərilərimizi spam xarakterli arzuolunmaz qoşulmalardan qorumaqdır. Uzun müddətdir ki, biz bu istiqamətdə çalışırıq və hələ ötən il işlərimizin böyük bir qismini tamamlamışdıq. Bu gün isə böyük məmnuniyyətlə bildiririk ki, artıq bu göstəricini sıfır həddinə çatdırmağa nail olmuşuq. "Nar" müştəriyönümlü strategiyasına sadiq qalaraq, hər zaman abunəçilərə yüksək keyfiyyətli xidmət göstərməyə davam edəcək", - deyə "Azerfon"un Kommersiya İdarəsinin direktoru Qəhrəman Kazımov bildirib.

Abunəçilər yarana biləcək istənilən sualla bağlı "777" qısa nömrəsinə zəng edərək 24/7 rejimində çalışan Müştəri Xidmətlərinə, "Nar"-ın "Facebook", "Twitter" və "Instagram" səhifələrinə, onlayn çata müraciət edə və qısa müddət ərzində sorğularına cavab ala bilərlər. Bundan başqa, "Nar+" mobil tətbiqinin "İstifadə tarixçəsi" bölməsindən də sərfiyyat haqqında lazım olan bütün informasiyanı əldə etmək mümkündür. Qeyd edək ki, "Nar" həyata keçirdiyi müştəriyönümlü strategiya və təqdim etdiyi yüksək keyfiyyətli xidmət sayəsində 2 il ərzində ilk dəfə olaraq mobil operatorlar arasında müştəri loyallığı indeksi üzrə birinci olub.

# AzerTelecom "Türkmentel 2019" sərgisində iştirak edəcək




Azərbaycanı beynəlxalq internet şəbəkəsinə bağlayan magistral (backbone) internet provayder şirkəti "AzerTelecom" 27-28 noyabr tarixlərində Türkmənistanın Aşqabad şəhərində keçiriləcək "Türkmentel 2019" 12-ci Beynəlxalq Telekom və İT Sənayesi sərgisində təmsil olunacaq. "AzerTelecom" şirkətinin Korporativ kommunikasiya şöbəsinin rəhbəri Əlimərdan Sultanovun bildirdiyinə əsasən, şirkətin sərgidə iştirak etməkdə məqsədi müxtəlif telekommunikasiya xidmətlərinin Türkmənistanda sərginin yerli və beynəlxalq iştirakçılarına təqdim edilməsi, onlarla fikir və təcrübə mübadiləsinin aparılması, texnoloji yeniliklərlə tanış olmaq, eləcə də şirkətin beynəlxalq əlaqələrinin daha da genişləndirilməsidir.

Sayca 12-ci olan "Türkmentel 2019" Telekom və İT Sənayesi sərgisində Avropa və Asiya qitələrindən olan müxtəlif şirkətlərin, eləcə də Türkmənistanın yerli İKT qurumlarının iştirakı gözlənilir. Sərgidə kommunikasiya və şəbəkə, rəqəmsal biznes həlləri, İT xidmətlər, informasiya texnologiyaları infrastrukturu və data mərkəz, ERP və data təhlil, təhlükəsizlik, tədqiqat və innovasiya, və s. sahələrdə məhsullar, xidmətlər və həllər təqdim olunacaq.

"AzerTelecom" Azərbaycanın, ümumilikdə isə Cənubi Qafqaz regionunun ən iri telekommunikasiya operatorlarından biridir və ölkənin ilk mobil operatoru və ən sürətli mobil internet provayderi olan "Bakcell" şirkətinin törəmə müəssisəsidir. "AzerTelecom" 2008-ci ildə təsis edilib və telekommunikasiya sektorunda yerli və xarici şirkətlərə müxtəlif qabaqcıl xidmətlər təqdim edir. "AzerTelecom" hazırda Azərbaycanın sahib olduğu Enerji və Nəqliyyat Mərkəzi statuslarına əlavə olaraq ölkənin Regional Rəqəmsal Mərkəzə çevrilməsi üçün "Azerbaijan Digital HUB" proqramını icra edir. Proqramın reallaşması ölkənin Milli İT və Milli İnnovasiya strategiyası üçün mühüm təməl yaradır və rəqəmsallaşmanın sürətlənməsinə, rəqəmsal iqtisadiyyata çevik transformasiyaya, start-apların, İT arxitekturasının inkişafına mühüm töhfə verəcəkdir. Proqram ümumilikdə ölkənin İKT sisteminin ən qabaqcıl dünya standartları səviyyəsinə çatdırılması, ölkənin beynəlxalq reytinqlərdə daha öncül sıralara çıxmasına şərait yaradacaqdır.

# AzerTelecom şirkətinin iştirakı ilə TransCaspian Fiber Optic layihəsi üzrə Qazaxıstanda işlərin başlanmasına dair tədbir keçirilib

*19 noyabr tarixində Aktau şəhərində Azərbaycan və Qazaxıstan arasında Xəzər dənizinin dibi ilə Transxəzər Fiber Optik kabel xəttinin (TransCaspian Fiber Optic - TCFO) çəkilişi üzrə Qazaxıstan ərazisində işlərə başlanmasına dair təntənəli mərasim baş tutub. TransCaspian Fiber Optic - Azərbaycan tərəfdən AzerTelecom, Qazaxıstan tərəfdən isə Transtelecom və KazTransCom telekommunikasiya operatorlarının Azərbaycan və Qazaxıstan arasında Xəzər dənizinin dibi ilə fiber-optik rabitə xəttinin çəkilməsi ilə bağlı iri miqyaslı layihəsidir.*




AzerTelecom, Transtelecom və KazTransCom rabitə operatorları arasında 2018-ci ildə müvafiq üçtərəfli müqavilə imzalanıb. 19 mart 2019-cu il tarixində "Azərbaycan Respublikası Hökuməti ilə Qazaxıstan Respublikası Hökuməti arasında Azərbaycan Respublikasının və Qazaxıstan Respublikasının rabitə operatorları tərəfindən Azərbaycan-Qazaxıstan marşrutu üzrə Xəzər dənizinin dibi ilə fiber-optik rabitə xətlərinin birgə tikintisi, sahibliyi və istifadəsində müştərək fəaliyyətin təşkili haqqında" dövlətlərarası saziş imzalanıb və daha sonra hər iki ölkə rəhbərliyi tərəfindən təsdiq edilib.

Xəzər dənizinin dibi ilə çəkiləcək xəttin uzunluğu təqribən 380-400 km. təşkil edəcək. Magistral kabel xəttinin məlumat ötürmə gücü isə 4-6 terabit/s-dən az olmayacaq. TransCaspian Fiber Optic hər iki ölkə üçün strateji vacib layihə olacaq və Avropa ilə Asiya arasında tranzit ehtiyaclarını tamamilə ödəyəcək. Azərbaycan Respublikasının Baş Naziri Əli Əsədov, Qazaxıstan Respublikasının Baş Naziri Askar Mamin, digər dövlət rəsmiləri, eləcə də sazişin tərəfləri olan operator-şirkətlərin rəhbərləri Qazaxıstan ərazisində işlərə başlanılmasına dair mərasimdə iştirak ediblər.

Tədbirdə çıxış edən AzerTelecom şirkətinin Baş Direktoru Fuad Allahverdiyev layihənin vacibliyini qeyd edib. "TransCaspian Fiber Optic (TCFO) Avropa ilə Asiya arasında Azərbaycan və Qazaxıstan vasitəsilə rəqəmsal telekommunikasiya dəhlizi formalaşdıracaq. Magistral kabel Azərbaycan və Qazaxıstanı sualtı kabel xəttinə sahib ölkələr kimi qlobal internet xəritəsinə daxil edəcək və Xəzər hövzəsində yerləşən iki ölkə arasında rəqəmsal sahədə əməkdaşlığın inkişafı üçün imkanlar yaradacaq. Layihə iki ölkənin İKT sektorunun inkişafı üçün təməl olacaq, Azərbaycan və Qazaxıstanı Avropanın internet mərkəzləri ilə birbaşa əlaqələndirəcək və regionun digər dövlətlərinin internet xidməti ilə təmin edilməsinə imkan verəcək" - deyə Fuad Allahverdiyev qeyd edib.

AzerTelecom - Azərbaycanın telekommunikasiya operatorudur. Şirkət ölkənin ilk mobil operatoru və ən sürətli mobil internet provayderi olan "Bakcell" şirkətinin törəmə müəssisəsidir. AzerTelecom şaxələnmiş şəbəkə vasitəsilə Azərbaycanı beynəlxalq internet şəbəkəsi ilə birləşdirir. Şirkət telekommunikasiya sektorunda yerli və xarici şirkətlərə müxtəlif qabaqcıl xidmətlər təqdim edir. Hazırda AzerTelecom şirkəti Azərbaycanın rəqəmsal mərkəzə çevrilməsi üçün Azerbaijan Digital Hub (ADH) proqramını icra edir. TransCaspian Fiber Optic kabel xəttinin tikintisi Azerbaijan Digital Hub proqramı çərçivəsində digər layihələrlə birlikdə Avropa ilə Asiya arasında Azərbaycandan keçəcək Rəqəmsal İpək Yolunun yaradılmasına xidmət edəcək.

# Görmə məhdudiyyətli insanlar üçün "Nar"ın "Canlı kitab" layihəsi davam edir

Fiziki məhdudiyyətli şəxslərə dəstək məqsədilə "Nar"ın növbəti - "Canlı kitab" layihəsi "Radio Antenn" 101 FM-in efirində artıq ikinci aydır ki, davam edir. "Canlı kitab" layihəsində klassik və müasir Azərbaycan ədəbiyyatının, eyni zamanda dünya klassiklərinin Azərbaycan dilinə tərcümə olunmuş əsərləri audio-kitablar şəklində yazılır. Görmə məhdudiyyəti olan insanların dünyasına işıq salmaq məqsədilə həyata keçirilən layihə ilə səsli ədəbiyyat kitabxanası yaradılacaq. İndiyədək C. London, G.De Mopassan, H.Murakami, A.Çexov, C.Məmmədquluzadə, Y.V.Çəmənzəminli, Ə.Haqverdiyev, İ.Məlikzadə, K.Abdullanın əsərləri canlı səsləndirilib.

Qeyd edək ki, ötən ayın əvvəlindən başlayaraq "Radio Antenn" 101 FM-in canlı efirində Azərbaycan və dünya ədəbiyyatının seçmə nümunələri tanınmış aktyorlar, qiraət ustaları tərəfindən səsləndirilir. Layihə başa çatdıqdan sonra bütün səsyazılarının flaşkardlar şəklində kitab oxumaqda çətinlik çəkən şəxslərə paylanması nəzərdə tutulur. Layihənin əsas məqsədi bədii ədəbiyyatı görmə məhdudiyyətli insanlar üçün əlçatan etmək, insanların ədəbiyyata marağının artmasına dəstək olmaqdır. Qeyd edək ki, proqramı həftəiçi beş gün saat 10:00-dan 12:00-dək "Radio Antenn" 101 FM-in yayımında dinləyə bilərsiniz.


*Baş redaktor:*
Bəhruz Quliyev
*Baş redaktorun müavinləri:*
Valeh Məhərrəmli
Fətulla Həsənov

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**